8 noyabr 2024 №83 (2148)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi üçün səylərimizi davam etdirəcəyik



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün 5-6 noyabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkekdə səfərdə olub.

Noyabrın 6-da TDT-nin zirvə görüşü keçirilib. Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Birgə foto çəkdirilib.

Prezident Sadır Japarov zirvə görüşünü açaraq iştirakçıları salamlayıb. O, çıxışında yaxın günlərdə Bakıda keçiriləcək COP 29 konfransına da diqqət çəkib və bildirib ki, biz Azərbaycan hökumətinə bu mövzu ilə bağlı hər cür dəstək göstərməyə hazırıq.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev çıxışında TDT-nin türk xalqlarını daha da yaxınlaşdırdığını bildirib. O, ortaq türk əlifbasının yaradılması, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib.

Son iki ildə Qırğız Respublikasına üçüncü dəfə səfər etdiyini deyən İlham Əliyev hər səfərində dost ölkənin inkişafında əldə edilən uğurların şahidi olduğunu bildirib.

Dövlətimizin başçısı həmçinin ötən bir ildə TDT-yə uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edib.

Bu il TDT-nin əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümü olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş qeyri-rəsmi zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir. Azərbaycan TDT-nin möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

davamı səh. 2-də

## Zəfərin arxasındakı Bayraq

### Bayram bayrama qovuşanda gözəl olur...

Ta qədimdən savaşlarda qazanılan qələbələr, fatehlərin zəfərləri göyə ucaldılan bayraqlarla bəyan edilib. Savaş doğma yurdun azadlığı, Vətən torpağının bütövlüyü, milli dövlətin suverenliyi uğrunda gedirsə, bu müqəddəs amal naminə canını fəda edənlərin şəhadəti kimi, qazanılan qalibiyyəti aləmə bildirən bayraqların da yeri ucadan ucadır.

2020-ci ilin 8 noyabrında əzəli yurd yerimiz Şuşanın qala divarında asılan üçrəngli bayrağımız kimi. Otuzillik işğala son qoyan Vətən müharibəsindəki Zəfər Şuşada bayrağımızla taclandı.

8 Noyabr – Azərbaycanın yeni tarixinin və ümumilikdə götürsək, minilliklərlə ölçülən ulu keçmişimizin ən şanlı səhifəsi, 2020-ci ilin Vətən müharibəsində Zəfər günüdür. Bu Zəfərin tarixə yazıldığı qala-şəhərimiz, mədəniyyət paytaxtımız yenidən doğuluşunun ildönümünü – milli təqvimimizdə parlaq yerini alan Şuşa Şəhəri Gününü qeyd edir. Zəfərli şəhər artıq dördüncü ildir bu günü yeni növrağı, möhtəşəm quruculuq mənzərəsi ilə qarşılayır.

Tarixin yazısına, qismətinə bax ki, təqvimimizdə 8 Noyabrın ardınca gələn gün – 9 Noyabr da böyük bayramdır: Dövlət Bayrağı Günü.

1918-ci ilin bu günü milli dövlətçilik tariximizin ilk səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul edilib. Bir kərə yüksələn bayraq... Azərbaycan sovetləşəndən (1920) sonra endirilsə də, 1991-ci ildə yenidən müstəqilliyini bərpa edən dövlətimizin rəmzi oldu.

Otuz ilə yaxın bu bayrağın bütün Vətən torpaqlarında göylərə ucalması ən müqəddəs arzumuz oldu. 2020-ci ilin 44 günlük müqəddəs savaşında azad edilən yurd yerlərimizdə Ali Baş Komandana edilən hər qalibiyyət




raportu ucalan bayrağımızla tarixə həkk edildi.

8 Noyabr Zəfərinin labüd davamı olan 2023-cü ilin 20 sentyabr Qalibiyyəti də Xankəndidə qaldırılan bayraqla dövlət suverenliyimizin tam bərpasını bütün dünyaya duyurdu...

8 Noyabrdan sonra 9 Noyabr gəlir. Təqvimin sırası budur. Bizim üçün isə bu, sadəcə, sıralanan rəqəmlər deyil. Zəfərin arxasındakı Bayraq deməkdir.

Bayram bayrama qovuşanda, həqiqətən də, gözəl olur...

## Mərkəzi parkın üçüncü hissəsi açılıb

Prezident İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi parkın üçüncü hissəsinin açılışında iştirak edib.



Dövlətimizin başçısına paytaxtın Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verilib.

Mərkəzi parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da olub. Prezident İlham Əliyev açılışda iştirak edib.

Bildirilib ki, növbəti mərhələdə parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülüb.

davamı səh. 2-də

## "Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı"

### Milli İncəsənət Muzeyində dahi rəssamın yubiley sərgisi



Bu il Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri Xalq rəssamı Səttar Bəhlulzadənin (1909-1974) anadan olmasının 115, vəfatının isə 50 illiyidir.

Bu münasibətlə noyabrın 6-da Azərbaycan Milli İncəsənət Muzeyində "Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı" adlı sərgi açılıb.

Sərginin açılış mərasimində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, ADA Universitetinin rektoru professor Hafiz Paşayev, mədəniyyət naziri Adil Kərimli, tanınmış incəsənət xadimləri iştirak ediblər.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə keçirilən sərgidə rəssamın muzeyin kolleksiyasından seçilmiş 40-dan çox rəngkarlıq və qrafika əsəri yer alıb. Bununla yanaşı, görkəmli sənətkarın muzey tərəfindən yeni əldə olunan 2 rəsm albomu ilk dəfə nümayiş etdirilir. Sərginin kuratoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Şirin Məlikovadır.

davamı səh. 2-də

## "Bütün dünyanın ürəyi Bakıda döyünəcək"

Gələn həftə ən vacib beynəlxalq tədbir olan COP29 başlayır. Baş nazirimiz, xarici işlər katibimiz, enerji təhlükəsizliyi və "xalis sıfır" üzrə dövlət katibimiz və bir sıra digər Britaniya nazirləri, elm adamları, vətəndaş cəmiyyəti nümayəndələri və iş adamları Azərbaycana gələcək. Bir neçə gündən sonra bütün dünyanın ürəyi Bakıda döyünəcək. Britaniya hökuməti olaraq bizim missiyamız aydındır. Missiyamız indi və gələcəkdə hamı üçün yaşanıla bilən planetdir. Bu, olduqca ağır missiyadır.




Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld bunu noyabrın 7-də ADA Universitetində YOUNGO və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən İqlim Dəyişmələri üzrə Gənclərin 19-cu konfransında (COY19) deyib.

"İqlim dəyişikliyi qida və su qıtlığı, xəstəlik, münaqişə, qeyri-sabitlik, iqtisadi sarsıntılar və insanların yerdəyişməsi ehtimalını artırır. Çağırışımız kollektiv fəaliyyətin razılaşdırılması ilə bağlıdır. Çünki bizim kollektiv təhlükəsizliyimiz və rifahımız bundan asılıdır", – deyə o bildirib.

Qeyd edək ki, 11–22 noyabr tarixlərində keçiriləcək COP29-a dünyanın 200-ə yaxın ölkəsindən 50 mindən çox qonaq, o cümlədən dövlət və hökumət başçıları, eləcə də beynəlxalq təşkilatların rəhbərləri qatılacaq. Bu, Azərbaycanın tarixində ev sahibliyi etdiyi ən irimiqyaslı beynəlxalq tədbirdir.

## Kino sənayesini necə inkişaf etdirməli?

Mədəniyyət naziri Adil Kərimli Dövlət Film Fondunda Azərbaycan Respublikası Kino Agentliyi tərəfindən elan olunmuş film layihələri müsabiqəsi və postprodakşn mərhələsində olan film layihələrinə dəstək müsabiqəsində qalib gələn şirkətlərin nümayəndələri ilə görüşüb.

Görüşdə kommersiya və animasiya filmlərinin çəkilməsi, film istehsalı üçün maliyyə mənbəyinin tapılması, vahid dövlət satınalma müqaviləsi, kino tənqidi sahəsinin inkişafı, kino sahəsində vergi güzəştləri, orta nəsil rejissorların işə daha çox cəlb edilməsi, sənədli film studiyalarının yenidən bərpa olunması, idman filmlərinə dəstək, televiziya filmlərinin maliyyələşdirilməsi və s. mövzularda təkliflər səsləndirilib.

səh. 3

## İstiqlal Muzeyində "Yaşıl vətən, yaşıl dünya"

Azərbaycan İstiqlal Muzeyi və Azərbaycan Rəssamlıq Akademiyasının birgə təşkilatçılığı ilə "Yaşıl vətən, yaşıl dünya" adlı sərgi təşkil olunub.

Muzeydən bildirilib ki, sərgi "Yaşıl dünya naminə həmrəylik ili"nə və COP29-a həsr olunub.

Tədbirdə muzeyin direktoru Sədi Mirseyibli, Rəssamlıq Akademiyasının prorektorları – Xalq rəssamları, professorlar Fuad Salayev, Səlhab Məmmədov, akademiyanın professoru, sənətşünaslıq



üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev çıxış ediblər.

Sərginin Azərbaycan incəsənətində davamlı inkişafın simvolu olduğu və gələcək nəsillərə ətraf mühitə məsuliyyətli yanaşma mesajı verdiyi vurğulanıb.

Sonra iştirakçılar sərgi ilə tanış olublar. Sərgidə nümayiş olunan 40-dan çox əsərdə Azərbaycanın zəngin və rəngarəng təbiəti aydın şəkildə öz əksini tapıb.

Bədii hissədə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri çıxış ediblər.

Sərgi noyabrın 25-dək davam edəcək.

BXA-da Zəfər Gününə həsr olunmuş tədbir

səh. 3


Bölgələrin bayram ab-havası
səh. 4


Ekranda vərəqlənən ömür səhifələri
səh. 6

№83 (2148)
8 noyabr 2024
www.medeniyyet.az

# Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi üçün səylərimizi davam etdirəcəyik

*əvvəli səh. 1-də*

Azərbaycan Prezidenti daha sonra deyib: “Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.

Son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək”.

Dövlətimizin başçısı vurğulayıb ki, 2023-cü ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa edib: “Ermənistan 30 il davam edən işğal dövründə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim”.




Prezident Azərbaycanın yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəyini xatırladaraq bildirib ki, keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləyib. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür: “Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər”.

***

Daha sonra çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda yaranan sabitliyin pozulmaması üçün Ermənistanla Azərbaycan arasında sülh razılaşması istiqamətində danışıqların davam etdirilməsinin vacibliyinə toxunub. “Cənubi Qafqazda mövcud olmuş 30 illik münaqişə və qeyri-sabitlikdən sonra sülh və əmin-amanlığa gedən yolun qapıları açılmışdır. Can Azərbaycanın Vətən müharibəsində döyüş meydanında şəhidlər verərək əldə etdiyi tarixi uğurların ən yaxın zamanda sülh müqaviləsinin imzalanması ilə masada da əksini tapmasını ümid və arzu edirik”, – deyə o vurğulayıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxışında Bakıda keçiriləcək COP29-la bağlı Azərbaycan Prezidentinə təbriklərini çatdırıb.

Macarıstanın Baş naziri Viktor Orban çıxışında Azərbaycanın və Türkiyənin ölkəsinin enerji təhlükəsizliyinə töhfə verdiklərini vurğulayıb, qaz təchizatı ilə bağlı hər iki ölkəyə təşəkkürünü bildirib.

TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, hazırda təşkilata üzv ölkələr arasında həyata keçirilən layihələrdə müasir texnologiyalardan istifadə, süni intellektin tətbiqi, təhlükəsizlik məsələləri, elektron ticarətin təşkili və reallaşdırılması prioritet istiqamətlərdir.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar dili və kökü bir olan türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək Yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində TDT-nin rolunu xüsusi vurğulayıb. Ersin Tatar deyib ki, ŞKTC-nin üzvlüyü ilə Türk dünyasının Aralıq dənizi ilə əlaqələri daha da güclənəcək. ŞKTC-nin dəniz və hava limanları türk dövlətlərinin ticarət əlaqələrinin inkişafında mühüm rol oynayacaq.

***

Sonda zirvə görüşünün sənədləri imzalanıb.

2025-ci ildə TDT-nin 12-ci zirvə görüşünün Azərbaycanda keçirilməsi qərara alınıb.

Xatırladaq ki, bundan öncə 2019-cu ildə Bakı türk dövlət başçılarının zirvə görüşünə ev sahibliyi edib. Həmin vaxt qurum Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) adlanırdı. 2020-ci ildə pandemiya səbəbindən zirvə görüşü keçirilməyib. 2021-ci ildə İstanbulda təşkil olunan 9-cu zirvə toplantısında Türk Şurası Türk Dövlətləri Təşkilatı adlandırılıb. 2022-ci ildə Səmərqənd (Özbəkistan), 2023-cü ildə Astana (Qazaxıstan) müvafiq olaraq 10-cu və 11-ci zirvə toplantılarına ev sahibliyi edib.

## Bakıda Mərkəzi parkın üçüncü hissəsi açılıb

### Ümumi sahə 35,4 hektara çatdırılıb



*əvvəli səh. 1-də*

Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3 min 500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbit torpaq tökülüb, müasir suvarma sistemi qurulub.

Mərkəzi parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə əks etdirməsidir. Layihənin mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, futbol-basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. Süni göl və ətrafında söhbətgahlar yaradılıb.

İstirahət parkında müasir işıqlandırma sistemi qurulub. Ərazidə XIX əsrin sonu – XX əsrin əvvəllərində inşa edilən və yerli sakinlər arasında “Təndir hamamı” kimi tanınan tarixi-memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri, parklanma yerləri yaradılıb və digər işlər görülüb.

Mərkəzi parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn məscidinin mənzərəsi tam olaraq açılıb. Parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş “Sovetski” adlanan ərazidə salınan parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

## Paytaxtda yeni yol: Böyükşor-Pirşağı

Prezident İlham Əliyev noyabrın 7-də Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbəri Saleh Məmmədov görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Böyükşor-Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə, Digah və Məmmədli qəsəbələrindən keçərək Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq yol 6 hərəkət zolağından ibarətdir.

## Siyavuş Kərimiyə Prezidentin fərdi təqaüdü verilib




Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Siyavuş Əşrəf oğlu Kərimiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

Prezident İlham Əliyev noyabrın 7-də bununla bağlı sərəncam imzalayıb.

Qeyd edək ki, noyabrın 9-da tanınmış bəstəkar, Xalq artisti, Azərbaycan Milli Konservatoriyasının rektoru professor Siyavuş Kəriminin 70 yaşı tamam olur.

Siyavuş Kərimini yubileyi və Prezidentin fərdi təqaüdçüsü olması münasibətilə təbrik edirik!

## Milli Kitabxanada Zəfər Gününə həsr edilmiş tədbir

Noyabrın 7-də Milli Kitabxanada 8 Noyabr – Zəfər Gününə həsr edilmiş tədbir keçirilib. Kitabxananın direktoru Kərim Tahirov 2020-ci ilin Vətən müharibəsi və Zəfər Gününün tariximizin şanlı səhifəsi olduğunu vurğulayıb.




Tədbirdə iştirak edən Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova diqqətə çatdırıb ki, rayonun ərazisində noyabr ayının 1-dən etibarən “Zəfər həftəsi” elan olunub, müəssisə, təşkilat və idarələrdə mədəni-kütləvi tədbirlər, idman yarışları və s. təşkil olunur, şəhid ailələri və qazilərlə görüşlər keçirilir. Səbail rayonundan Vətən müharibəsində 16 nəfərin şəhid olduğunu deyən K.Həşimova şəhidlərin adlarını əbədiləşdirmək üçün məktəblərdə sinif otaqlarının, xatirə lövhələrinin açıldığını bildirib.

Tədbirin davamında Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan “Zəfər Günü şanlı tariximizdir!” adlı elektron məlumat bazasının təqdimatı olub.

Elektron məlumat bazası ilə bu linkdə tanış olmaq olar:
http://anl.az/el/emb/Zefer_gunu/index.html

Milli Kitabxananın əməkdaşı Səyyarə Məmmədli Zəfər Gününə həsr etdiyi şeirini səsləndirib.

Sonda iştirakçılar “Zəfər Günün mübarək, Azərbaycan!” adlı kitab sərgisi ilə tanış olublar.

# “Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı”

### Milli İncəsənət Muzeyində dahi rəssamın yubiley sərgisi





*əvvəli səh. 1-də*

Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Xalq rəssamı Səlhab Məmmədov, tarix elmləri doktoru, dövlət xadimi Həsən Həsənov, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev, muzeyin Elmi-tədqiqat şöbəsinin müdiri Telman İbrahimov çıxış edərək Səttar Bəhlulzadənin milli təsviri sənətdə qoyduğu təkrarsız izdən danışıb, sərginin əhəmiyyətini vurğulayıblar.

Qeyd olunub ki, hələ sağlığında adı əfsanəyə çevrilmiş Səttar Bəhlulzadə bütün yaradıcılığı boyu böyük məhəbbətlə sevdiyi doğma yurdun təbiətini tərənnüm edib və öz əsərlərində onun bütöv obrazını əbədiləşdirib. Rəssamın tablolarının koloritində hansısa aparıcı rəng üstünlük təşkil edir və onun köməyi ilə çox zaman əsərin aid olduğu konkret yaradıcılıq mərhələsini təyin etmək mümkündür.



Sərginin ekspozisiyasında yer alan əsərlər də məhz bu prinsip əsasında təqdim olunur.

Sənət yolunun başlanğıcını təcəssüm edən mavi rəngli ilk zalda realizmdən qaynaqlanan təbiət təsvirləri, əbədi gənclik, mənəvi hüzur, təbiət gözəlliklərinə məhəbbətlə əlaqələndirilən yaşıl zalda isə Azərbaycan mənzərələrinin ayrı-ayrı cizgiləri, qrafik rəsmləri yer alıb.

Qırmızı zalda sənətə böyük məhəbbətlə bağlanan rəssamın öz dəst-xəttini formalaşdıraraq milli mənzərə rəngkarlığında yeni səhifə açdığı dövr əks olunub. Sarı zal isə odlar yurdu Azərbaycanın valehedici mənzərələrini təcəssüm etdirərək həm də rəssamın sakral dünyasının ifadəçisidir.

Yaradıcılığının kulminasiya nöqtəsini həyatı boyu yaşatdığı mənəvi paklığı, daxili nuru, sənətkar və şəxsiyyətin bir varlıqda vəhdətini özündə ehtiva edən bəyaz zal isə xəyal etdiyi “Gülüstan”a, sanki ağ duvağa bürünmüş “Xəzər gözəli”nə, “Mavi əfsanə”yə, tərənnüm etməkdən usanmadığı Abşerona əbədi sevgisinin izharıdır.

Multimedia vasitələrindən istifadə edilən sərgidə rəssamın “Gülüstan” əsəri animasiya formasında da təqdim olunur. Bununla yanaşı, sənətkarın vitrində sərgilənən albomlarının bütün səhifələri sensorlu ekran (touchscreen) vasitəsilə nümayiş edilir, həmçinin “Bu, Səttar Bəhlulzadədir” sənədli filmindən fraqment göstərilir.

Sərgi 31 yanvar 2025-ci il tarixinədək davam edəcək.

## “Qanımızla qazanmışıq Zəfəri”

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş ”Qanımızla qazanmışıq Zəfəri” adlı tədbir keçirilib.

Muzeyin Elmi-kütləvi işlər şöbəsinin müdiri Ümidə Hacıyevanın Qarabağ hadisələri və 44 günlük Vətən müharibəsindən bəhs edən mühazirəsi dinlənilib.

Vətən müharibəsi və işğaldan azad edilmiş torpaqlara Böyük Qayıdış haqqında muzey əməkdaşları tərəfindən hazırlanan videoçarxlar nümayiş olunub.

İkinci Qarabağ müharibəsinin iştirakçısı Soltan Cəfərov döyüş əməliyyatlarından, xalqımızın bu çətin, amma şərəfli yolda dəmir yumruq kimi birgə mübarizəsindən danışıb.

Konsert proqramı ilə davam edən tədbirdə Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi mahnı və rəqs ansamblının solistləri vətənpərvərlik mövzusunda mahnılar oxuyublar.



Tədbirdə Azərbaycan Dövlət Dəniz Akademiyasının müəllim və tələbə heyəti, Teatr Muzeyinin əməkdaşları və media nümayəndələri iştirak ediblər.

# Kino sənayesini necə inkişaf etdirməli?

## Mədəniyyət naziri film layihələri müsabiqəsinin qalibləri ilə görüşüb

Mədəniyyət naziri Adil Kərimli Dövlət Film Fondunda Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən elan olunmuş film layihələri müsabiqəsi və postprodakşn mərhələsində olan film layihələrinə dəstək müsabiqəsində qalib gələn şirkətlərin nümayəndələri ilə görüşüb.

Görüşdə ARKA-nın fəaliyyəti haqqında məlumat verən mədəniyyət naziri Adil Kərimli qeyd edib ki, qurumun əsas hədəfi film istehsalçıları üçün əlverişli ekosistemin yaradılmasıdır. Bildirilib ki, ARKA tərəfindən ötən il elan olunan film layihələri müsabiqəsində ərsəyə gətirilən işlərin müdafiə (pitçinq) mərhələsi gerçəkləşib. Bu mərhələdə layihələr Seçim komissiyasının üzvləri və Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurasının nümayəndələri tərəfindən qiymətləndirilib. Bu müsabiqə vasitəsilə 40-dan çox film istehsalata buraxılıb.

Nazir söyləyib ki, ölkəmiz 2023–2024-cü illərdə beynəlxalq film müsabiqələrində uğurla təmsil olunub: "Bu, çox müsbət haldır və bizi sevindirir. Lakin nəticələr hələlik qənaətbəxş deyil. Çünki bu sahədə potensial olduqca çoxdur və ondan istifadə etməliyik. Bunun üçün də film çəkilişləri zamanı infrastruktur baxımından meydana gələn çətinlikləri və problemləri müzakirə etmək vacibdir".



Sonra kommersiya və animasiya filmlərinin çəkilməsi, film istehsalı üçün maliyyə mənbəyinin tapılması, vahid dövlət satınalma müqaviləsi, kino tənqidi sahəsinin inkişafı, kino sahəsində vergi güzəştləri, orta nəsil rejissorların işə daha çox cəlb edilməsi, sənədli film studiyalarının yenidən bərpa olunması, idman filmlərinə dəstək, televiziya filmlərinin maliyyələşdirilməsi və s. mövzularda təkliflər səsləndirilib.

Diqqət mərkəzinə çəkilən məsələlərə münasibət bildirən nazir kinonun ümumi inkişafına xidmət edəcək hər bir rəy və təklifin nəzərə alınacağını söyləyib.

Görüşdə, həmçinin kino sahəsində kadr çatışmazlığı, filmlərin dublyajı ilə bağlı bir sıra fikirlər, o cümlədən tənqidi mülahizələr səslənib, bu xüsusda boşluqların olduğu vurğulanıb.

Nazir mədəniyyətin bir çox sahəsində kadr çatışmazlığının özünü göstərdiyini bildirib. Deyib ki, Mədəniyyət Nazirliyi tərəfindən kino sahəsində kadr hazırlığına böyük əhəmiyyət verilir və bununla bağlı Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq mövcuddur.









Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən "Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramı" həyata keçirilib. Proqramda qalib gələn gənclərdən 6 nəfər (ötən il 1 nəfər olub) xaricdə kino sahəsi üzrə nazirliyin qrantı əsasında təhsil alır.

Bədii, sənədli kino ilə yanaşı, animasiya filmlərinin istehsalına da toxunan nazir bu sahənin inkişafına xüsusi diqqət ayrılacağını söyləyib.

Adil Kərimli görüşün sonunda kino ictimaiyyəti ilə belə geniş tərkibdə, işgüzar və səmimi atmosferdə ünsiyyətdən məmnunluğunu bildirib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

**Nurəddin Məmmədli**

# Teatr sahəsində islahatlar prioritet istiqamətlərdən biridir

Mədəniyyət naziri Adil Kərimlinin teatr-konsert müəssisələri və müvafiq təhsil ocaqlarının kollektivləri ilə görüşləri davam edir. Görüşlərdə müəssisələrin fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə olunur. Növbəti görüş noyabrın 6-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrında olub.

Musiqili Teatrın zəngin keçmişə, özünəməxsus sənət ənənələrinə malik olduğunu deyən Adil Kərimli ölkəmizdə teatr sahəsinə göstərilən dövlət dəstəyindən də danışıb. Bildirib ki, Prezident İlham Əliyev mədəniyyət sahəsinin də inkişafını daim diqqətdə saxlayır. Son illərdə teatrların maddi-texniki təchizatının yaxşılaşdırılması, paytaxtda, həmçinin bölgələrdə yeni teatr binalarının tikilməsi və əsaslı təmir-bərpası istiqamətində böyük işlər görülüb və bu sahədə fəaliyyət davam etdirilir.





Qeyd olunub ki, zaman-zaman Musiqili Teatrda korifey sənətkarlar çalışıb, Azərbaycan və dünya dramaturgiyasının diqqətəlayiq nümunələri tamaşaya qoyulub. Kollektiv tamaşaçıların estetik zövqünü oxşayan maraqlı səhnə əsərlərini nümayiş etdirir. Musiqili Teatr da nazirliyin dəstəyi ilə həm ölkədaxili, həm də xarici qastrol səfərlərində iştirak edir.

Teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev kollektivlə görüşə görə nazirə minnətdarlığını bildirib, teatrın uğurları ilə yanaşı, bəzi diqqət çəkilməli olan məsələlərdən danışıb.

Xalq artistləri İlham Namiq Kamal, Afaq Bəşirqızı, Fatma Mahmudova, Əməkdar artistlər Əzizağa Əzizov, Ələkbər Əliyev, Əkbər Əlizadə, Nadir Xasiyev, Əməkdar incəsənət xadimi dirijor Fəxrəddin Atayev, aktyorlar Gülcahan Salamova, Eleonora Mustafayeva, Gültac Əlili, xor artistləri Aydan Əliyeva, Günel Qafarova, teatrın quruluşçu rəssamı Əməkdar artist Nabat Səmədova, teatrın baş rəssamı Vüsal Rəhim və başqaları çıxış edərək təklif və müraciətlərini dilə gətiriblər.

Adil Kərimli deyib ki, Mədəniyyət Nazirliyi tərəfindən teatr sahəsində də islahatların aparılması prioritet istiqamətlərdən biridir.

Sonda kollektivin bir sıra üzvlərinin sualları cavablandırılıb.

# Xəzərin qoruyucuları: mayaklar və xalçalar

## Dəniz Vağzalında sərgi



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) və "Azərxalça" ASC-nin birgə layihəsi kimi "Xəzərin qoruyucuları: mayaklar və xalçalar" adlı sərgi tərtib edilib.

Xəzər dənizinin və hər biri abidəyə çevrilən mayakların tarixini xalçaçılıq sənətinin incə nümunələri ilə əks etdirən sərgi 5 noyabr tarixindən Bakı Limanının mədəniyyət mərkəzi sayılan Dəniz Vağzalında nümayiş olunur.

Kolleksiyaya Bakı Limanının sifarişi ilə "Azərxalça"nın Xaçmaz emalatxanasında toxunan və Xəzər sahilindəki 8 mayakı əks etdirən "Amburan", "Abşeron", "Şüvəlan", "Çilov", "Nargin (Böyük Zirə)", "Lənkəran", "Səngi Muğan", "Kür dili" xalçaları daxildir. "Azərxalça"ya aid "Çələbi", "Çələbi Bərdə" və "Qasımuşağı" xalçaları da sərgidə təqdim edilir.

Sərgi həm xalçaçılıq sənətinin, həm də Xəzər sahillərində tarix və irs işığı olan mayakların qorunmasının vacibliyini diqqətə çatdırır. Burada Azərbaycanın dənizçilik tarixini əks etdirən və Bakı Limanına aid eksponatlar da yer alıb.

Açılış mərasimində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin sədri Taleh Ziyadov Azərbaycanın dəniz irsi sayılan mayaklar haqqında qısa məlumat verib. Diqqətə çatdırılıb ki, bu irsin tarixinin qorunub saxlanılması üçün uzunmüddətli araşdırmaları özündə əks etdirən "Mayaklar" adlı kitab da hazırlanıb. Nəşrin hazırlanması zamanı yerli və xarici arxivlərdəki sənədlərdən istifadə edilib.

"Azərxalça" ASC-nin sədri Əməkdar incəsənət xadimi Emin Məmmədov isə COP29 ərəfəsində həyata keçirdikləri layihələrdən söz açıb, həm xalçaçılıq, həm də dənizçilik tarixi baxımından sərginin əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, Dəniz Vağzalında sərgi ilin sonuna qədər ziyarət üçün açıq olacaq.

# "Zəfərimiz, qürurumuz, mənəviyyatımız"

Azərbaycan Rəssamlıq Akademiyasının Muzey-sərgi kompleksində "Zəfərimiz, qürurumuz, mənəviyyatımız" adlı elmi konfrans keçirilib.



8 Noyabr – Zəfər Gününə həsr olunmuş konfransda Rəssamlıq Akademiyasının rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Akademiyanın rektoru Xalq rəssamı, professor Natiq Əliyev bayram münasibətilə təbriklərini çatdıraraq, qazanılan böyük qələbəni Azərbaycanın tarixinin ən şanlı və qürurverici səhifəsi adlandırıb.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyev "Zəfərimiz təsviri sənətimizdə" adlı məruzə ilə çıxış edib. O, akademiya tələbələrinin bu mövzuda hazırladıqları əsərlər haqqında fikirlərini bölüşüb.

Tarix üzrə fəlsəfə doktoru, dosent Bəhman Kərimov "Milli yaddaşımızın qürur günü" adlı məruzəsində tarixi Qələbəmizin milli kimliyimiz və mədəniyyətimiz üzərindəki təsirini önə çəkib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aslan Xəlilov "Müasir dövr Azərbaycan rəngkarlığında Zəfər mövzusu" adlı məruzəsində rəssamların bu mövzuda işlədiyi əsərlərin əhəmiyyətini vurğulayıb.

Sonra Rəssamlıq Akademiyasının II Qarabağ müharibəsinin iştirakçısı olmuş tələbə-məzunları haqqında videoçarx nümayiş etdirilib.

# BXA-da Zəfər Gününə həsr olunmuş tədbir

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas təhsili pilləsinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə BXA-nın rəhbərliyi, müəllim-tələbə heyəti və Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu iştirak edib.

Dövlət Himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Bildirilib ki, Zəfər Günü birliyimizin, iradəmizin rəmzi kimi Azərbaycan tarixinə əbədi həkk olunub. Müzəffər Ordumuz Ermənistanın işğalçı qüvvələrini məhv edərək böyük Qələbəyə imza atıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan güclü siyasəti, yenilməz Ordumuz və dəmir yumruq kimi bir olan xalqımızın gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edilib.

Tədbirdə BXA-nın orta ixtisas təhsili pilləsi tələbələrinin ifasında xalq çalğı alətlərində F.Əmirovun "Laylay", Ü.Hacıbəylinin "Koroğlu" operasından uvertüra və "Qarabağ şikəstəsi" səsləndirilib.

Sonda igid Vətən oğullarının şanlı Zəfər zirvəsinə gedən yolunu əks etdirən videoçarx təqdim olunub.

# "Mehmandarovlar" kitabının müəllifi ilə görüş

Milli Arxiv İdarəsinin Dövlət Arxivində 8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə məşhur artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri olmuş Səməd bəy Mehmandarov haqqında kitabın müəllifi, tədqiqatçı-jurnalist Vasif Quliyevlə görüş keçirilib.

Görüşdə Bakı Dövlət Universiteti Tarix fakültəsinin tələbələri və arxiv əməkdaşları iştirak ediblər.

Arxivin direktor müavini Səyyarə Hacıyeva çıxış edərək görkəmli hərbçi Səməd bəy Mehmandarovun həyat və fəaliyyəti haqqında məlumat verib.

"Mehmandarovlar" kitabının müəllifi Vasif Quliyev apardığı arxiv araşdırmaları haqqında danışıb.

Əməkdar jurnalist Elşən Əliyev kitabın əhəmiyyətindən bəhs edib, onun həmçinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işinə töhfə olduğunu deyib.

Xalq artisti Eldost Bayram kitabdan parçaları qiraət edib.

Tədbir iştirakçılarına Vasif Quliyevin Azərbaycan və ingilis dillərində nəşr olunmuş "Şuşa qalası" broşürlər seriyası hədiyyə edilib.

# "Nuhun izi ilə" Stokholma gedib çıxıb

Stokholm şəhərində tanınmış isveçli fotoqraf və rejissor Mikael Silkeberqin "Nuhun izi ilə" sənədli filmi nümayiş olunub.




Film UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının layihəsi çərçivəsində ölkəmizin İsveçdəki səfirliyinin təşəbbüsü və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Naxçıvanda lentə alınıb.

Sənədli film əfsanəyə görə, gəmisi Gəmiqaya dağına gəlmiş Nuh peyğəmbərə gedib çıxan Naxçıvanın qədim tarixindən bəhs edir. Filmdə Naxçıvanın dünya əhəmiyyətli qədim memarlıq abidələrindən, UNESCO siyahısına salınmış Naxçıvan yallılarından, Naxçıvanın görkəmli şəxsiyyətlərindən söz açılır.

Tədbirdə çıxış edən Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov diqqətə çatdırıb ki, bu il Azərbaycanın Naxçıvan Muxtar Respublikasının 100 illiyidir. Azərbaycan mədəniyyətinin pərəstişkarı olan Mikael Silkeberq Naxçıvanın zəngin mədəniyyətini və tarixini şəxsən araşdırmaq və heyrətamiz sənədli film çəkmək üçün bu diyara səfər edib.

Diplomat qeyd edib ki, bu, Mikael Silkeberqin Azərbaycana həsr olunmuş üçüncü filmidir, digər iki film – "Xarıbülbül əfsanəsi" və "Odin şifrəsi" noyabrın 7-də Parisdə nümayiş etdiriləcək.

Azərbaycan Prezidentinin Naxçıvandakı səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bu diyarın zəngin tarixi-mədəni irisindən bəhs edib.

Filmin rejissoru Rəhim Sadıxbəyli Diasporla İş üzrə Dövlət Komitəsinə və Naxçıvan Mədəniyyət Nazirliyinə, eləcə də filmin çəkilişlərində iştirak edən Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivinə minnətdarlığını bildirib.

# "Zəfərin mübarək, Azərbaycan!"










Bölgələrdə 8 Noyabr – Zəfər Günü münasibətilə silsilə tədbirlər keçirilir. Tədbirlərdə müasir tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin xalqımızın əbədi qürur qaynağına çevrildiyi qeyd olunub.

***

Şabran rayon Heydər Əliyev Mərkəzində "Azərbaycanın Zəfər tarixinin şanlı səhifəsi" adlı tədbir keçirilib. Çıxışlarda 44 günlük Vətən müharibəsində Ordumuzun düşmən üzərində parlaq Qələbə qazanması, torpaqlarımızın işğaldan azad olunması, soydaşlarımızın otuzillik Vətən həsrətinə son qoyularaq doğma yurdlarına qayıdışı, Qarabağ bölgəsində gedən quruculuq işləri barədə geniş məlumat verilib.

Sonra şagirdlərin rəsmlərindən ibarət sərgiyə baxış olub.

***

Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə "Zəfərin mübarək, Azərbaycan!" adlı şəhid övladlarına həsr edilmiş konsert proqramı keçirilib.

Məktəbin müəllimlərindən ibarət ansamblın ifasında rəngarəng musiqi nömrələri səslənib. Şəhid övladlarına və valideynlərinə məktəbin rəhbərliyi tərəfindən qəhrəmanların fotoşəkili əks olunmuş portretlər hədiyyə edilib.

***

Sumqayıt şəhər Gənclər Kitabxanasında şəhər 5 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin iştirakı ilə "Zəfərin mübarək, Azərbaycan!" adlı ədəbi-bədii gecə keçirilib. Çıxışlarda Zəfərlə başa çatan 44 günlük müharibənin xronologiyasından danışılıb. Şagirdlər vətənsevərlik ruhlu şeirlər səsləndiriblər.

***

Ağdam rayon Heydər Əliyev Mərkəzində (Quzanlı qəsəbəsi) "Qarabağ Azərbaycandır!" adlı tədbir təşkil edilib. Çıxışlarda Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı qazandığı şanlı Qələbədən danışılıb. Zəfər Gününə həsr edilmiş film nümayiş etdirilib.

Ağdam rayon Qaradağlı kənd Mədəniyyət evində kənd Uşaq musiqi məktəbi, kitabxana, Rzalar kənd klubu və kitabxanasının birgə təşkilatçılığı ilə "Zəfər tariximizin qəhrəmanları" adlı tədbir keçirilib. Şagirdlərin ifalarında vətənpərvərlik mövzusunda şeirlər söylənilib. Şagirdlərin Zəfər Gününə həsr etdikləri rəsmlər nümayiş etdirilib.

***

Şirvan şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "30 ilin 44 günü" adlı şeir müsabiqəsinə yekun vurulub. V-XI sinif şagirdləri arasında keçirilən müsabiqənin məqsədi gənc nəsildə vətənpərvərlik hisslərinin gücləndirilməsi və yaradıcı təfəkkürü ilə fərqlənən istedadlı şagirdləri üzə çıxarmaqdır. Müsabiqənin qaliblərinə fəxri fərmanlar təqdim olunub.






Şirvan şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Şirvan Folklor evində "Zəfərin izi ilə" adlı tədbir keçirilib. Əvvəlcə 44 günlük Vətən müharibəsinə həsr olunan videoçarx nümayiş etdirilib. "Bayraq" və "Xarıbülbül" rəqs qruplarının, solistlərin və Şirvan şəhər Uşaq musiqi məktəbindəki ritm qrupunun ifaları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Vətən müharibəsi iştirakçısı Rəsul İsmayılovun əl işlərindən ibarət sərgi də açılıb.

***

Salyan Tarix-Diyarşünaslıq Muzeyində "Zəfərimiz tariximizdir" adlı sərgi açılıb.

Vətən müharibəsi şəhidlərinin şəxsi əşyalarının nümayiş olunduğu sərgi noyabr ayının sonunadək ziyarətçilər üçün açıq olacaq.

***





Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində Zəfər Günü (8 noyabr) və Dövlət Bayrağı Günü (9 noyabr) qeyd olunub. Çıxışlardan sonra məktəbin müəllim və şagirdlərinin ifasında vətənpərvərlik ruhlu musiqi nömrələrindən ibarət konsert olub.

Tovuz regional "ASAN Xidmət" Mərkəzində rayon Mərkəzi Kitabxanası ilə birgə "Şanlı Zəfərin 44 günü" başlığında səyyar kitab sərgisi təşkil edilib. Sərgidə 44 günlük Vətən müharibəsini, Zəfər tarixini özündə əks etdirən, eyni zamanda II Qarabağ müharibəsi şəhidlərinə həsr olunmuş kitablar nümayiş olunub. Sərgi zamanı "ASAN Xidmət" əməkdaşlarına səyyar kitabxana xidməti də göstərilib.

***

Ağdaş rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan klub müəssisələrinin əməkdaşları arasında keçirilən "Zəfərin səsi" adlı bilik yarışına yekun vurulub. "Zəfər" komandası I, "Qələbə" komandası II, "Odlar yurdu" komandası III yeri tutub. Qaliblər diplom və medallarla təltif olunub.

***

Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbində Zəfər Günü münasibətilə tədbir keçirilib. Qazax şəhər 1 nömrəli və Ağstafa şəhər Hüseyn Arif adına Uşaq musiqi məktəblərinin birgə hazırladıqları konsert proqramı təqdim edilib.

Qazax rayon Molla Pənah Vaqif və Molla Vəli Vidadinin Xatirə Muzeyində "Zəfərimiz sizinlə" adlı dəyirmi masa keçirilib. Müharibə iştirakçıları keçdikləri döyüş yolundan söhbət açıb, muzey əməkdaşları şanlı Qələbəmiz haqqında fikirlərini bildiriblər. Muzeyin əməkdaşı Arzu Həsənova şanlı Zəfərə həsr etdiyi şeirini söyləyib.

***

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında şanlı Zəfərimizin ildönümü münasibətilə keçirilən tədbirdə Vətən müharibəsinin tariximizdəki yerindən bəhs olunub. Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının tələbələri və kitabxananın fəal oxucuları Zəfərə, şəhidlərə və bayrağa həsr olunmuş şeirləri qiraət ediblər. Sonda "Xalqımızın Zəfər tarixi" adlı kitab sərgisi nümayiş olunub.

***

Masallı rayon Heydər Əliyev Mərkəzi, rayon Tarix-Diyarşünaslıq Muzeyi, MKS və digər qurumların təşkilatçılığı və dəstəyi ilə Zəfər Gününə həsr olunan tədbir keçirilib. Masallı Dövlət Regional Kollecinin tələbələri, "Dəfinə" liseyinin şagirdləri tərəfindən ədəbi-bədii kompozisiya və Masallı şəhər Onbirillik incəsənət məktəbinin müəllim və şagird kollektivlərinin ifasında vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

Masallı Dövlət Rəsm Qalereyası və "Masallı Gənclər Evi" sosial xidmət müəssisəsinin (SXM) birgə təşkilatçılığı ilə "Bütöv Azərbaycanımız" devizi altında rəsm müsabiqəsi keçirilib. 9-12 və 13-18 yaş qrupu üzrə şagirdlər arasında təşkil edilən müsabiqədə Ruslan Qasımov və Yağmur Əliyeva I, Məryəm Nəzərova və Balabacı Dadaşova II, Nurgün Cəfərli və Firayət Kərimli isə III yerlərə layiq görülüblər. Qaliblər "Masallı Gənclər Evi"nin diplomları ilə təltif ediliblər.

***

Hacıqabul rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə şəhər Folklor klubunda keçirilən bayram tədbirində mədəniyyət işçilərinin rəngarəng çıxışları maraqla qarşılanıb.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Keçmişimizin qisası, gələcəyimizin qüruru" adlı tədbir keçirilib. Çıxışlarda 44 günlük Vətən müharibəsində şanlı Qələbənin əldə edilməsində dövlət-ordu-xalq birliyinin önəmi barədə fikirlər səsləndirilib. Sonra "Vətən müharibəsi – anbaan" filmi nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Lənkəranda şəhidin xatirə lövhəsi açılıb

Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Tural Hümmətovun xatirə lövhəsinin açılış mərasimi keçirilib.



Tədbir ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov, xatirə lövhəsinin müəllifi Tərlan Sadıqov, rəssam Şöhrəddin Səbziyev, Osakücə kəndinin icra nümayəndəsi Ramin Dövlətov müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Zəfər yürüşündən, 44 günlük Vətən müharibəsində göstərilən igidlik və qəhrəmanlıqlardan bəhs ediblər. Sonra idarə rəisi şəhid anaları ilə birlikdə xatirə lövhəsinin açılışını edib.

Lənkəran şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Münəvvər Kələntərli adına şəhər klubunun əməkdaşları tərəfindən xatirə lövhəsinin qarşısına əklil qoyulub. Klubun dərnək üzvü Tural Hümmətovun xatirəsinə həsr olunmuş şeiri səsləndirib.

Sonda şəhidin anası Cəmilə Hümmətova tədbirdə əməyi keçən hər kəsə ailəsi adından minnətdarlıq edib.

# "Xalqın mədəni sərvəti"nin növbəti mərhələsi başa çatıb

## Bülbülün xatirəsinə həsr olunmuş konsertlər

Xəbər verdiyimiz kimi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Xalqın mədəni sərvəti" layihəsinin növbəti mərhələsi Azərbaycan professional vokal sənətinin banisi Bülbülün xatirəsinə həsr olunub.

Layihə çərçivəsində Əməkdar artistlər Ramil Qasımovun rəhbərlik etdiyi "Bülbül Vokal Məktəbi"nin tələbələri konsert proqramı ilə çıxış ediblər. Konsertdə Üzeyir Hacıbəylinin "Koroğlu" operasından Xanəndə qızın mahnısı, "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası, Asyanın nəğməsi, Süleyman Ələsgərovun "Vətənimdir", "Gözlə məni", Asəf Zeynallının "Ölkəm", "Sual" romansları, Müslüm Maqomayevin "Nərgiz" operasından Nərgizin ariyası, Azərbaycan xalq mahnıları "Bağçada güllər", "Səndən mənə yar olmaz" və italyan musiqiləri səsləndirilib.

Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Xalq artisti Polad Bülbüloğlu çıxış edərək layihənin ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.





"Xalqın mədəni sərvəti" layihəsinin bağlanış mərasimi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin iştirakı ilə reallaşıb.

Konsert proqramında Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, İlahə Əfəndiyeva, Səbinə Vahabzadə, solistlər Səma Həmzəyeva, Nigar Cəfərova, Adil Axundov, Rza Xosrovzadə, Fəhmin Əhmədli, Taleh Yahyayev Üzeyir Hacıbəylinin "Koroğlu" operasından Koroğlunun, Nigarın, Həsən xanın ariyaları, Xanəndə qızın mahnısı, "Sənsiz", Asəf Zeynallının "Ölkəm" romansları, Cakomo Puççininin "Toska", "Bohema", "Edqar" operalarından ariyaları səsləndiriblər.

İfaçıları Əməkdar artistlər İlahə Sadıqzadə, Zülfiyyə Sadıqova, Nüşabə İsa və Nigar Hüseynzadə müşayiət ediblər.

# Cəbrayıl şəhərinə daha 30 ailə köçüb

Noyabrın 7-də daha 30 ailə (150 nəfər) Cəbrayıl şəhərinə köçürülüb. Ailələrə Cəbrayıl şəhərində yeni inşa edilən yaşayış kompleksindəki mənzillərinin açarları təqdim olunub.



Mərasimdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

ANAMA-nın əməkdaşları tərəfindən yeni sakinlərə mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Onlara tanımadıqları əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Qeyd edək ki, Cəbrayıl şəhərinə sakinlərin köçürülməsi sentyabrın 26-da başlayıb. 31 ildən sonra Cəbrayıl şəhəri doğma sakinlərinə qucaq açıb.

İndiyədək şəhərdə 163 ailənin – 583 nəfərin daimi məskunlaşması təmin edilib.

# Qlobal iqlim dəyişmələri mədəni irsə necə təsir edir?

## Ağsu qoruğunda seminar

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunda "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı və COP29 çərçivəsində mədəni irs üzrə mütəxəssis, ekoloq Gülşən Hüseynovanın "Qlobal iqlim dəyişmələri və onun mədəni irsə təsiri" mövzusunda seminarı keçirilib.

Seminarda Dövlət Xidmətinin Qəbələ Regional İdarəsinin rəisi Fariz Xəlilli, Ağsu Rayon İcra Hakimiyyətinin əməkdaşı Kənan Tacızadə, AMEA Arxeologiya və Antropologiya İnstitutu Albanşünaslıq mərkəzinin rəhbəri tarix üzrə fəlsəfə doktoru Qafar Cəbiyev və digər qonaqlar iştirak ediblər.

Gülşən Hüseynova COP29-un Bakıda keçirilməsinin əhəmiyyəti haqqında məlumat verib, Azərbaycanda iqlim dəyişikliyinin təsirlərindən bəhs edib. Həmçinin Xəzərdə suyun səviyyəsinin azalması, səhralaşma prosesi və s. ekoloji problemlərə toxunub.




Mütəxəssis tövsiyə edib ki, qoruq ərazisində kol bitkilərinin və qızıl boya bitkisinin əkilməsinə ehtiyac var, modul tipli suvarma qurğularının tətbiqi vacibdir.

Daha sonra ekoloji məsələlər ətrafında müzakirələr aparılıb.

# “Rektor olandan bəri yaradıcılığa vaxt ayıra bilmirəm”

## Ceyran Mahmudova: “Ən böyük problemimiz tədris korpusundakı darısqallıqdır”

Ötən il 100 illiyini qeyd edən, zəngin ənənələrə malik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) bir əsrlik fəaliyyəti dövründə mədəniyyətimizin inkişafına mühüm töhfələr verib. Bu gün ölkəmizdə mədəniyyətin bütün sahələrində çalışan insanların əksəriyyəti bu təhsil ocağının məzunlarıdır.

Müsahibimiz ADMİU-nun rektoru musiqişünas-alim, sənətşünaslıq elmləri doktoru, Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudovadır.



*– Ceyran xanım, ADMİU 101-ci tədris ilinə necə başlayıb?*

– Ötən il universitetin 100 yaşı qeyd edildi. Bu, kollektivimiz üçün çox əhəmiyyətli, yaddaqalan hadisə oldu. Möhtərəm Prezidentimizin sərəncamı ilə universitetin yubileyi dövlət səviyyəsində qeyd edildi. Dekabr ayında dövlət başçımız təhsil ocağının bir qrup professor və müəllimini təltiflərlə sevindirdi. Bu təltifləri bütün kollektivə verilən dəyər kimi qəbul edirik.

Digər tərəfdən, 100 illik yubiley fərqli formatda qeyd edildi. Hər fakültə öz tədbirlərini keçirdi: tamaşalar, konsertlər, sərgilər... Eyni zamanda ölkəmizin 10-dan çox universitetində də yubileyimizlə bağlı tədbirlər təşkil olundu. Yubiley ilinə müəllim və tələbələrimizin iştirakı ilə hazırlanan V.Şekspirin “Maqbet” tamaşası ilə yekun vurduq.

Universitet elə bir canlı orqanizmdir ki, burada hər gün hər hansı bir yeniliyin olması hökm deyil. Amma daimi inkişaf strategiyası var. Biz sahib olduğumuz ənənələrə əsaslanaraq müasir dövrün tələblərinə uyğun şəkildə təhsili inkişaf etdirməliyik. Ətrafımızda baş verənlər, müasir dövrdə mədəniyyətimizin qarşısında qoyulan məqsəd və vəzifələr universitetdə tədris prosesində mütləq nəzərə alınır.

*– Yeni ixtisaslar yaradılırmı?*

– Bəli, son illər universitetimizdə bir sıra yeni ixtisasların tədrisinə başlanılıb. Animasiya rejissorluğu, animasiya rəssamlığı, mədəniyyət sahəsində menecment. Sonuncu qeyd etdiyim ixtisas artıq üç ildir uğurla tədris olunur. Dərslər Azərbaycan və ingilis dillərində aparılır. Biz tələbələri qəbul edəndə mütləq sonradan onların hansı sahədə işlə təmin olunacaqlarını düşünməliyik. Bununla bağlı, ilk növbədə, Elm və Təhsil Nazirliyi, həmçinin müəssisələri üçün kadr hazırladığımız Mədəniyyət Nazirliyi ilə davamlı əməkdaşlıq edirik.

Yeri gəlmişkən deyim ki, Azərbaycanda ilk dəfə mədəniyyət və incəsənət sahəsində biznesin təşkili və idarə olunması üzrə bilik və təcrübələr əldə etməyə imkan verən MBA proqramı Mədəniyyət və İncəsənət Universitetində təşkil edilib. Hazırda bu sahəyə maraq çoxdur. Birinci il biz 10 yer ayırdıq. Yerlərin hamısı doldu. Sonra gördük bu ixtisasa gələnlər daha da artır, ingilis dilində də bölmə açdıq və yerlərin sayını çoxaltdıq.



### Məzunlarımızın 70-85 faizi işlə təmin olunur

*– 2024/2025-ci tədris ili üçün universitetə tələbə qəbulu üzrə neçə yer ayrılmışdı?*

– 660 yer vermişdik. 600 nəfər qəbul olundu. Hər il təxminən bu qədər qəbul olur.

Bütün fakültələrimiz üzrə qəbul var.

*– Məzunlarınızın təxminən neçə faizi işlə təmin oluna bilir?*

– İllər üzrə bu rəqəm fərqli olur. İstəyirəm oxucular da bilsin ki, sovet dövründən fərqli olaraq indi universitetlərdə təyinat yoxdur. Universitet tələbələrin sonrakı yerləşdirilməsinə cavabdeh deyil. Biz bu öhdəliyi üzərimizə götürə bilmərik. Biz, sadəcə, tədrislə məşğuluq. Məzunlarımızın 70-85 faizi işlə təmin olunur. Bu da əsasən ixtisasdan və istiqamətdən asılıdır. Hazırda universitetdə 21 ixtisas tədris olunur. Təsəvvür edin bütün bu ixtisaslarla bağlı fərqli vəziyyət var. Biz öz vəzifəmizi onda görürük ki, çalışıb dövrün tələblərinə uyğun olaraq yaxşı təhsil verək. Təbii ki, biz məzunlarımızın taleyi ilə maraqlanırıq. Bəzi məzunlarımız elə universitetdə işlə təmin olunur. Rektor olduğum dövrdə 20-yə yaxın məzun bizdə işlə təmin edilib. Bunların sırasında müəllim, inzibati iş, tədris və yardımçı işlərdə çalışanlar var.

*– Bir qədər də universitetin beynəlxalq əlaqələrindən danışaq. Xaricdəki təhsil ocaqları ilə ikili diplom proqramı varmı?*

> Azərbaycanda ilk dəfə mədəniyyət və incəsənət sahəsində biznesin təşkili və idarə olunması üzrə bilik və təcrübələr əldə etməyə imkan verən MBA proqramı Mədəniyyət və İncəsənət Universitetində təşkil edilib. Hazırda bu sahəyə maraq çoxdur.

– Mədəniyyət və İncəsənət Universitetində tədris prosesi dünyanın qabaqcıl ali təhsil müəssisələrinin proqramlarına uyğun təşkil edilir. ADMİU ilə Şimali Kipr Türk Cümhuriyyətinin Arkın Yaradıcı Sənətlər və Dizayn Universiteti (ARUCAD) arasında bağlanmış əməkdaşlıq protokoluna əsasən, aktyor sənəti ixtisası üzrə ikili diplom proqramı həyata keçirilir. Magistr hazırlığında isə Qazaxıstanın Jurqenov adına Milli İncəsənət Akademiyası ilə teatrşünaslıq üzrə ikili diplom proqramımız mövcuddur. Bundan əlavə, bir sıra beynəlxalq layihələrin iştirakçısıyıq. Bu il iki “Erasmus” mübadilə proqramını qazanmışıq. “Jean Monet Modulu”nun iştirakçısıyıq. Azərbaycanda bir neçə universitet bu layihəyə qoşulub. Müxtəlif ölkələrin mütəxəssisləri universitetimizdə ustad dərsləri keçir, mühazirələr oxuyurlar. Bu, mütəmadi xarakter daşıyır. Demək olar ki, hər il Rusiya Dövlət Teatr Sənəti İnstitutundan (QİTİS) mütəxəssisləri dəvət edirik. Onlarla çox yaxşı münasibətimiz var. Eyni zamanda Qazaxıstandan olan magistrantlar hər il müxtəlif ixtisaslar üzrə gəlib bizdə təcrübə keçirlər. Müəllimlərimiz də bir sıra ölkələrdə ixtisasartırma kursunda iştirak edirlər.



Bir sözlə, universitetimizin həyatı yetərincə dinamikdir. İlin sonuna qədər ustad dərsləri və müxtəlif ölkələrdən olan müəllimlərin mühazirələri reallaşacaq. İstanbul Nişantaşı Universiteti pedaqoqlarının keçdikləri silsilə ustad dərsləri yekunlaşıb və kinofestival layihəsi reallaşır. 6-15 dekabr tarixlərində İstanbul Nişantaşı Universiteti və ADMİU-nun birgə təşkilatçılığı ilə “Film heç bitməsin” adlı birinci beynəlxalq kinofestivalı keçiriləcək. Eyni zamanda tələbələrimiz TÜRKSOY-un xətti ilə təşkil edilən festivalda, Rusiyada, Türkiyədə və digər ölkələrdə keçirilən tələbə film festivallarında uğurla iştirak edirlər. Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi bu proseslərdə bizə dəstək olurlar.

*– Vahid tələbə kartı. Son vaxtlar bu məsələ daha çox aktuallıq qazanıb...*

– Biz də bütün ölkə üzrə tələbələrin eyni güzəşt və endirimlərdən yararlanmalarını təmin etmək, eyni zamanda onların sosial həyatlarına dəstək göstərmək məqsədi daşıyan bu layihəyə qoşulmuşuq. Oktyabr ayında artıq müqavilə imzalamışıq. Tələbələrin xeyrinə olan bütün layihələrə qatılırıq.

*– Bir qədər də SABAH qruplarından danışaq.*

– Aktyor, operator, bu ildən isə ssenari üzrə SABAH qruplarımız var. Bu qruplar çox uğurla fəaliyyət göstərir. SABAH qrupu məzunlarının hazırladığı tamaşalar dəfələrlə xarici ölkələrdə festivalların qalibi olub. Onların bir çoxu təhsilini magistraturada davam etdirir, bəziləri də aparıcı teatrlarımızın truppalarında çalışırlar. Yəni SABAH çox uğurlu layihədir. Hazırda ssenari üzrə 8 nəfər tələbə təhsil alır. Onların kurs rəhbəri İlqar Fəhmidir. Onların da ümidləri doğruldacağına inanıram.

### Söz verilib ki, tədris teatrımızın yeni binası bir ilə tikiləcək

*– Ümumiyyətlə, universitet olaraq qarşılaşdığınız əsas çətinliklər nələrdir?*

– Ən böyük problemimiz tədris korpusunun imkanları ilə bağlıdır. Tədris korpusumuz universitetin kontingenti üçün yetmir, yerimiz darısqaldır. Bu bina vaxtilə Energetika Texnikumuna aid olub. Bizim maksimum 660 plan yeri verməyimizin səbəbi də budur. Yer olmadığı üçün bundan artıq plan verə bilmirik. Tədris teatrımızın binası sökülüb, yenidən tikiləcək. O da bizim üçün çox böyük bir gözləntidir. Bizə söz verilib ki, bina bir ilə tikilib təhvil veriləcək. Ənənəvi problemlər isə həmişə var: daha yaxşı avadanlıqlar, kameralar, musiqi alətləri, texniki təchizat... İstəyirik ki, tələbələr üçün ən yaxşı şəraiti yaradaq.

*– Təhsil ocağında mədəniyyətimizin bir sıra tanınmış simaları çalışır. Onların hər hansı bir kaprizləri varmı?*

– Mən buna kapriz deyil, yaradıcı şəxsiyyətin özünəməxsusluğu deyərdim. İstedadı olan hər bir şəxs fərqlidir. Onun öz dünyası var. Adi insanlar səhnədə obraz yarada, tabloda rəsm, musiqidə ifa edə bilməz. Onlara xüsusi yanaşma nümayiş olunmalıdır. Mən ailəmizdə belə insanların əhatəsində böyümüşəm. Bu səbəbdən də mənə yaradıcı insanlarla ünsiyyətdə olmaq çətinlik yaratmır, əksinə, daha xoşdur.

### Musiqişünas kimi fəaliyyətimi “dondurmuşam”

*– Söhbətimizi bir qədər də yaradıcılığa sarı yönəldək. Vaxtilə bir sıra mövzular üzrə ən çox müraciət etdiyim musiqişünas olurdunuz. Rektor olandan sonra isə vaxt qıtlığınız yarandı. İdarəçilik və yaradıcılıq. İkinciyə vaxt ayıra bilirsinizmi?*

– Rektor olduğum bu 6 ildə yaradıcılıqla müntəzəm məşğul olmağa vaxt ayıra bilmirəm. Musiqişünas kimi fəaliyyətimi, demək olar ki, “dondurmuşam”. Çünki bu, mümkün deyil. Bu təyinatın məsuliyyəti mənim üçün çox böyükdür. Bütün düşüncəm, fikrim, enerjim universitetin işlərinə yönəlib. Halbuki vaxtilə kitablarım çıxırdı, verilişim də var idi, redaktor kimi də fəaliyyət göstərirdim. Elmlər doktorluğu dissertasiyası müdafiə etmişdim, professor adı almışdım. Amma 6 ildir ki, rektorluq fəaliyyətim üzərində dayanmışam və bunu düzgün hesab edirəm. Təbii ki, öz fəaliyyətim üçün darıxıram. Hər iki sahədə işimi çox sevirəm. Kollektivimiz üçün faydalı tədris mühiti yaratmağa çalışıram.

*– Universitet olaraq qarşıda nə kimi hədəfləriniz var?*

– Hədəflərimiz gündəlik işimizin parçasıdır. Hər il dövlət başçısının sərəncamı ilə təyin edilən əlamətdar ilə uyğun olaraq tədbirlər planı hazırlayırıq. Bu il may ayında “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində, COP29-a həsr olunan gözəl bir sərgi təşkil etdik, dekabr ayında da tədbirlərimiz olacaq. Bundan əlavə, müəllimlərimiz böyük mədəni layihə və tədbirlərdə iştirak edirlər, könüllülərimiz də aktivdirlər. Bir sözlə, kollektiv mütəmadi olaraq bütün mədəni layihələrdə yaxından iştirak edir.

*– Müsahibəyə görə təşəkkür edir, işlərinizin avand olmasını arzu edirik.*

– Mən də “Mədəniyyət” qəzetinin kollektivinə uğurlar arzulayıram.

**Lalə Azəri**

## “Nəsimi” operası tamaşaya qoyulur

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı tərəfindən “Nəsimi” operası tamaşaya qoyulur.




Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin dərin fəlsəfəsini, azad ruhunu və humanist dəyərlərini canlandıran opera tamaşaçılara onun mənəvi dünyasına səyahət imkanı yaradacaq.

Musiqisi Xalq artisti, professor Siyavuş Kərimiyə, librettosu akademik Rafael Hüseynova məxsus olan opera Azərbaycan mədəniyyətinə yeni bir nəfəs gətirərək Nəsimi irsini gələcək nəsillərə və dünyaya çatdırmaq məqsədi daşıyır.

Noyabrın 20-də Heydər Əliyev Sarayında keçiriləcək premyerada İmadəddin Nəsimi obrazını Əməkdar artist Ramil Qasımov canlandıracaq. Tamaşada Xalq artistləri Teyyub Aslanov (Fəzlullah Nəimi), Nurəddin Mehdixanlı (Salnaməçi), Əməkdar artistlər İlkin Əhmədov (Əbdülqadir Marağayi), Anton Ferştandt (Əmir Teymurun vəziri), Cahangir Qurbanov (Məlikşüarə), solistlər Fatimə Cəfərzadə (Sənəm), Kamilə Nəbiyeva (Fatimə), Səma Həmzəyeva (Nəsiminin anası), Mahir Tağızadə (Əmir Teymur), Taleh Yahyayev (Zahid), Fəhmin Əhmədli (Əmir Teymurun vəkili), Xəyal Hüseynov (Dərviş), Ruslan Persan (Birinci keşikçi), Rza Xosrovzadə (İkinci keşikçi), Fuad Əzizzadə (Zindan açarçısı), Elmir Rüstəmov (Qazi) və başqaları rol alıb.

Tamaşanın musiqi rəhbəri və quruluşçu dirijoru Əməkdar artist Əyyub Quliyev, quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, quruluşçu xoreoqrafı Əməkdar artist Yuri Lobaçev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

Akademik Opera və Balet Teatrının Simfonik orkestri və xoru, balet truppası ilə yanaşı, tamaşada Xalq artisti Natiq Şirinovun rəhbərliyi altında “Natiq ritm” qrupu, Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Elnur Əhmədov (kamança) və Əmrah Orucov (ud) birgə çıxış edəcəklər.

## “Zəfərimiz – şərəfimiz” bədii qiraət müsabiqəsinə yekun vurulub

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə 4-5 noyabr tarixlərində 44 günlük Vətən müharibəsində Qələbənin 4-cü ildönümünə həsr olunmuş “Zəfərimiz – şərəfimiz” adlı bədii qiraət müsabiqəsi keçirilib.

ATXİ-nin Mustafa Mərdanov səhnəsində keçirilən müsabiqədə Azərbaycan Dövlət Akademik Milli Dram, Akademik Rus Dram, Milli Gənc Tamaşaçılar, Sumqayıt Dövlət Dram, Bakı Bələdiyyə, Naxçıvan Dövlət Milli Musiqili Dram, Füzuli Dövlət Dram, Ağdam Dövlət Dram, Gəncə Dövlət Kukla, Qazax Dövlət Dram, Qusar Dövlət Ləzgi Dram, Lənkəran Dövlət Dram, Salyan Dövlət Kukla, Şəki Dövlət Dram teatrlarını, eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) və Bakı Dövlət Universitetini təmsil edən iştirakçıların canlı çıxışları dinlənilib. Müsabiqədə iki müstəqil iştirakçı da olub.



Münsiflər – Əməkdar artist Azad Şükürov (sədr), Xalq artistləri Hacı İsmayılov və İlham Namiq Kamal, Əməkdar incəsənət xadimi Hafiz Quliyev və mədəniyyətşünas Aidə Qafarova şanlı Zəfər tariximizə həsr olunmuş bədii qiraət nümunələrini qiymətləndirib.

Sonda nəticələr elan edilib.

Məhsəti Tahirzadə (Akademik Milli Dram Teatrının aktrisası), Yaroslav Trifonov (Akademik Rus Dram Teatrı), Rəşad Səfərov (Milli Gənc Tamaşaçılar Teatrı), Nəsimi Məmmədzadə (Naxçıvan Dövlət Milli Musiqili Dram Teatrı), Banu Muharrem (Lənkəran Dövlət Dram Teatrı), Günel Həmidova (Bakı Bələdiyyə Teatrı), Mirxədicə Mirzəyeva (Salyan Dövlət Kukla Teatrı), Ramella Rzayeva (Qusar Dövlət Ləzgi Dram Teatrı), Məhəmməd Hacıyev (Gəncə Dövlət Kukla Teatrı), Elvin Nuri (Şəki Dövlət Dram Teatrı, rejissor), Gülgəz Soltanova (Füzuli Dövlət Dram Teatrı), Məlahət Vəliyeva (Qazax Dövlət Dram Teatrı), Elmir Hümbətov (Ağdam Dövlət Dram Teatrı), Kənan Hüseynov (ADMİU-nun IV kurs tələbəsi) və Mina Şıxova (müstəqil iştirakçı) müsabiqənin “uğurlu iştiraka görə” diplomu ilə təltif olunublar.

Qalan qiraətçilərə isə “müsabiqədə iştiraka görə” diplomu verilib.

ATXİ-nin sədri Hacı İsmayılov bütün iştirakçılara təşəkkür edib, uğurlar arzulayıb. İştirakçılarla xatirə şəkilləri çəkilib.

## Musiqi və incəsənət məktəblərində tədris proqramları yenilənib

Mədəniyyət Nazirliyi tərəfindən musiqi və incəsənət məktəblərində tədris olunan fortepiano, tar və violin ixtisaslarının tədris proqramı yenilənib.




Yenilənmə müasir təhsil standartlarına uyğunlaşdırılaraq, şagirdlərin tətbiqi və nəzəri biliklərinin daha səmərəli şəkildə artırılmasını təmin etmək məqsədi daşıyır. Əsas yeniliklərdən biri proqramda Azərbaycan bəstəkarlarının əsərlərinə xüsusi yer ayrılmasıdır.

Yeni proqram çərçivəsində musiqi ifaçılığı, texnika və yaradıcılıq bacarıqları daha əhatəli şəkildə tədris ediləcək. Fortepiano, tar və violin siniflərində tətbiq olunacaq metodika gənc istedadların potensialını daha da inkişaf etdirməyə, onları peşəkar musiqi təhsili ilə təmin etməyə istiqamətlənib.

Yaxın gələcəkdə digər ixtisas siniflərinin də tədris proqramlarının yenilənməsi nəzərdə tutulur.

№83 (2148)
8 noyabr 2024
www.medeniyyet.az

Yubilyar filmlərimiz

# Ekranda vərəqlənən ömür səhifələri



Azərbaycan kino tarixində almanaxlar o qədər də çox deyil. Üstəlik, almanax kimi təqdim olunan ekran əsərləri əksər etibarilə bir-birinə üzvi surətdə bağlanmır və onları ayrı-ayrılıqda seyr etmək olar. Kinoalmanax dediyin isə, ən azı, iki süjetin bir-birinə üzvi surətdə bağlanmağını tələb edir....

***

1974-cü ildə C.Cabbarlı adına "Azərbaycanfilm"in növbəti kinoalmanaxı – "Ömrün səhifələri" ekrana çıxdı. Üç kinonovella – "Rəqiblər", "Baladadaşın ilk məhəbbəti" və "Nəğmə dərsi" çox maraqlı tərzdə bir-birinə bağlanan tammetrajlı bədii film təsiri bağışlayır.

### "Rəqiblər"in münasibəti…

Kinonovellanın adı ani olaraq idman, yarış təəssüratı doğursa da, bu filmdəki rəqabət bambaşqadır. Əslində, "Ömrün səhifələri" kifayət qədər tanınan və sevilən film olduğundan məzmununu danışmağa ehtiyac yoxdur. "Rəqiblər"in quruluşçu rejissoru Teymur Bəkirzadə, ssenari müəllifi Ramiz Fətəliyev (quruluşçu rejissor ilə birlikdə) tamaşaçılara o dövrün İçərişəhəri üçün xarakterik məkanı və həmin məkanda baş verən əhvalatı təqdim edir.

Çəllək pivəsi satan Fazilin xırdavat köşkünün qarşı tərəfində daha modern bir köşk qoyulur və ... məhəllə kişilərinin pivə seçimində sapınmalar başlayır. Daha məlumatlı və mütaliəsevər Eldəniz ilə məhəllə əhlinə illərdən bəri vicdanla xidmət etmiş Fazilin müştərilərini itirmək qorxusu var. Nəhayət, pivə mövsümünün sonu yetişəndə yay mövsümünün rəqibləri dost kimi ayrılmağı bacarırlar.

"Rəqiblər" həm də koloritli aktyor ansamblı ilə seçilir. Müəlliflər qəhrəmanlarına ad seçərkən özlərini çətinə salmayıblar: Fazil Salayev – Fazil, Eldəniz Zeynalov – Eldəniz, Ələsgər Məmmədoğlu – Ələsgər, Muxtar Maniyev – Muxtar rollarında çəkiliblər.



### "Baladadaşın ilk məhəbbəti" xoşbəxt sonluqla bitsəydi…

Sonradan "Qızıl uçurum", "Yuxu" kimi maraqlı filmlərə quruluş verəcək rejissor Fikrət Əliyevin ilk filmi yazıçı-dramaturq Elçinin eyniadlı hekayəsi əsasında ekranlaşdırılıb. Bakının dənizkənarı kəndlərindən birində baş verən əhvalatın əsas qəhrəmanı uşaqlığı əsgərlik yaşınadək uzanan (peşə, yaxud ali təhsil almağı əsgərlikdən qayıdanadək təxirə salan) kənd uşağı Baladadaş, bir də yay tətilini Bakı bağında keçirən nişanlı şəhərli qız Sevincdir.

Başqa dünyaların adamı olsalar da, Baladadaş Sevincə aşiq olur, ilk gündəcə onun gözündə ucalmaq və rəğbətini qazanmaq (yük maşınından düşürdüyü şkafı yerə salıb sındırması) cəhdi fiaskoya uğrayır. Sevincin Baladadaşa saymazyana münasibəti, ona yuxarıdan aşağı baxması oğlanın gələcək həyatına təsirsiz ötüşmür: o, əsgərlikdən sonra mülki aviasiya sahəsində təhsil alır və təyyarəçi kimi xəyallarından da yüksəklərdə uçur. O zaman ilk filminə çəkilən gənc Şamil Süleymanov (Baladadaş), kinoda ilk böyük rolunu oynayan gənc müğənni Ruhəngiz Musəvi (Sevinc), aktyorluğu radio diktorluğuna dəyişsə də, səhnə fakturası və kamera qarşısındakı davranışı ilə çox obrazı yaddaqalan etməyə qabil Yusif Muxtarov (Sevincin nişanlısı) bu filmlə tamaşaçıların sevimlisinə çevrildilər.

Nə yaxşı ki, Sevincin nişanlısı varmış… Əgər o, Baladadaşın məhəbbətinə cavab versəydi, bəlkə də Baladadaşı "Nəğmə dərsi"ndəki Atanın taleyi gözləyərdi… Çünki kəsişməyən paralel düz xətləri sevgi də barışdıra bilmir…

### "Nəğmə dərsi"ndən qaçan uşaq

Bəzən milli filmləri kateqoriyalara ayıranlar "Nəğmə dərsi"ni uşaq filmi kimi dəyərləndirirlər. Əslində, ssenari müəllifi Rüstəm İbrahimbəyov, quruluşçu rejissoru Gülbəniz Əzimzadə olan bu 23 dəqiqəlik lent böyüklərin əməllərinə, həyat tərzi seçiminə uşaqların münasibətini göstərən və elə bu səbəbdən də böyüklər üçün filmdir.

Filmin iki əsas qəhrəmanı var: oğul Fəxrəddin (Fəxri Həsənov) və sürücü Ata (Əliabbas Qədirov). Həyat yoldaşından ayrılmış Ata oğlunu görmək üçün onun



təhsil aldığı məktəbin qarşısına gəlir və sonuncu dərsin nəğmə dərsi olduğunu biləndə uşaqla heç olmasa, 45 dəqiqə vaxt keçirmək fürsətini qaçırmır. Hətta ona balaca bir küçük də bağışlayır. Bir dərs müddətində ata-oğul arasındakı münasibət, onların dialoqu bu iki doğma insanın fərqli həyat dərsi aldığını, bambaşqa həyat meyarları ilə yaşadığını göstərir. Hökmlü, vasvasılıq dərəcəsində təmizkar Ananın (G.Rəsulova) tərbiyə adlı psixoloji basqısı altında, ütülü ziyalı görkəmli atalığı ilə böyüyən balaca Oğul ilə hələ adı olmayan şəhərə (yəqin ki, o vaxtlar ümumittifaq tikintisi kimi inşa olunan BAM-a – Baykal-Amur magistralına) işləməyə gedən Ata ilə arasındakı mənəvi uçurumun zamanla daha da dərinləşəcəyi diqqətli tamaşaçının qəlbini ağrıdır.

***

"Ömrün səhifələri" bütün məlumat bazalarında və kino ədəbiyyatında üç kinonovelladan ibarət almanax kimi təqdim edilir. Bizcə, bu üç novellanı Həsən Seyidbəyli qələmi və yozumu ilə bir-birinə hamar calayan Şəmsi Bədəlbəyli (Zəng gözləyən adam) və Sona Aslanovanın (Zəng gözləyən adamın arvadı) əhvalatıdır. Onlar oğullarının evlənmək istədiyi qızla tanış olmaq üçün bulvardakı restorandadırlar. Üzücü gözləməyə rəng verən isə hər üç novellanın bir qəhrəmanı ilə qarşılaşan Zəng gözləyən adamın ünsiyyətidir.

İşə bax ki, həm Eldəniz, həm də Fazil artıq öz bizneslərini genişləndirib restoran sahibinə çevriliblər. Hər ikisinin restoranı üzbəüzdür. Hər iki restoran müştəri sarıdan kasadlıq çəksə də, Fazil onun restoranına gələn xarici turistləri bir zaman köşkünü ona güzəştə getmiş Eldənizin müəssisəsinə yönləndirir. Zəng gözləyən adam bununla maraqlananda isə, "Rəqiblər" əhvalatını danışır.

Yuxarı mərtəbədə iş yoldaşları ilə məclis qurmuş Baladadaş kepkalı Müştərini (Hacıbaba Bağırov) içəri buraxmayan Muxtardan xahiş edir ki, onu salona buraxsın. Bu ayrı-seçkilik Baladadaşı qarğıdan tütək yonduğu, ərköyün Sevincə aşiq olduğu çağlara aparır.

Yeri gəlmişkən, sevgi barədə. Belə görünür ki, "Nəğmə dərsi"ndəki Ata ilə Ananı da sevgi qovuşdurubmuş; çünki "Bir cənub şəhərində"ki ("9-cu Xrebtovı" hekayəsinin və onun əsasında çəkilmiş "Bir cənub şəhərində" filminin ssenari müəllifi də Rüstəm İbrahimbəyovdur) Muradın məhəllə qonşusuna oxşayan Ata bir tərəfdə, Baladadaşın ilk məhəbbətindəki Sevinc kimi tipik bina uşağı, amma Sevincdən qat-qat ağıllı və hökmlü Ana da o biri tərəfdə.

"Ömrün səhifələrində"ki novellaları birləşdirən təkcə Həsən Seyidbəylinin fantaziyası, ustad rejissorluğu və ssenariçiliyi deyil. Gənc rejissorlar Fikrət Əliyev, Teymur Bəkirzadə və Gülbəniz Əzimzadənin, eləcə də ssenari müəllifləri Elçin, Ramiz Fətəliyev və Rüstəm İbrahimbəyovun bu novellalardakı çeşidli, fərqli düşüncəli və həyat tərzli Bakı insanını yaxından tanıması, duyması və ona səmimi münasibəti idi.

Səmimiyyət demişkən… Təxminən on beş il öncə Əməkdar artist Ruhəngiz Musəvidən müsahibə alırdım. Təbii ki, ona "Baladadaşın ilk məhəbbəti"ndəki rolu ilə bağlı sual verməyə bilməzdim. Ruhəngiz xanım hamımızın bildiyi məqamlardan danışdı. Bir an susandan sonra bəlkə də heç vaxt heç bir jurnalistə etmədiyi etirafını etdi: "Dəniz səhnəsini çəkirdik. Fikrət müəllim mənə başa saldı ki, çimərlik geyimində dənizə baş vurmaq, sonra da sahildə Şamillə qaçdı-tutdu oynamaq lazımdır. Yəni ssenarini oxuyanda da bilirdim ki, bu səhnə Baladadaşın xəyalı olsa da, gerçək çəkilməlidir. Çəkildim. Nə bir etirazım oldu, nə də şıltaqlığım. İnanın ki, çəkiliş qrupunda o qədər səmimi münasibət var idi, bu epizod filmdə o qədər yerində idi ki, ağlıma başqa heç nə gəlməmişdi. Düzdür, film ekrana çıxandan sonra anam bu səhnəyə görə məndən incidi. Amma artıq olan olmuşdu, film çəkilmişdi. O vaxtdan bu günədək mən öz güləyən Sevincimin dəniz epizodundakı görkəminə görə kimsədən atmaca eşitməmişəm. Çünki filmdə hər şey öz əndazəsində idi...".

"Ömrün səhifələri"nin musiqi baxımından da bəxti gətirib. Fikrət Əmirov, Aqşin Əlizadə, Emin Sabitoğlu kimi görkəmli bəstəkarlar bu filmə musiqi yazıblar. Bu filmin sayəsində Azərbaycan estrada musiqisi "Sevgi mahnısı" (E.Sabitoğlu, F.Qoca) adlı bir əbədi nəğmə də qazandı. "Baladadaşın ilk məhəbbəti" filmində bu mahnı Yalçın Rzazadənin ifasında səslənir. Müğənni mükəmməl ifası ilə mahnıya elə bir möhür vurub ki, əlli ildən sonra "Sevgi mahnısı"nı onun ifasını üstələyəcək bir ifa eşidilmir.

***

Almanax – ərəb dilində astroloji təqvim deməkdir. Qədimdə almanaxları münəccimlər tərtib edərdilər ki, insanlara ulduzlarla barışıq içində yaşam yolunu göstərsinlər… Əslində, yaxşı kinoalmanaxı da ulduzları barışan yaradıcı insanların birgə məhsulu kimi anlamaq olar. Eynən "Ömrün səhifələri" kimi…

Əgər "Ömrün səhifələri"ndəki kinonovellaların da ulduzları barışmasaydı, film ekrana çıxdığı zamandan 50 il sonra da baxılmazdı, sevilməzdi, ən əsası, müasir görünməzdi.

**Gülcahan Mirməmməd**

# Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji tədqiqatlarda

## Arxeoloq Qüdrət İsmayılzadənin xatirəsinə həsr edilmiş konfrans

5–6 noyabr tarixlərində Bakı Dövlət Universiteti (BDU) və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı ilə tanınmış arxeoloq, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadənin (1934–2024) 90 illik yubileyinə həsr olunmuş "Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji və etnoqrafik tədqiqatlarda" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.




Konfransda çıxış edən rektor Elçin Babayev BDU-nun elmi məktəbləri arasında arxeologiya məktəbinin özünəməxsus yer tutduğunu deyib. Bildirib ki, bu məktəbin görkəmli nümayəndələrindən biri Qüdrət İsmayılzadədir: "Yeni arxeoloqlar nəslinin yetişməsində yaxından iştirak edən Qüdrət İsmayılzadənin tədqiqatları bu gün də təhlil edilir və öyrənilir. Onun Azərbaycanda Antik dövrə aid ilk yaşayış məskəni olan Qaraköpəktəpə yaşayış yerindəki tədqiqatlara, həmçinin Qarabağda, Quruçay və Köndələnçay vadilərində arxeoloji abidələrin axtarış və qeydə alınması məqsədilə yaradılan ekspedisiyaya rəhbərlik etməsi həmin dövrün araşdırılması baxımından böyük töhfə idi. Qüdrət müəllim öz işinin ustası idi. Belə insanların işini davam etdirməliyik. Bu baxımdan hazırda əsas qayəmiz böyük Qələbəmizdən sonra azad edilmiş ərazilərdə aparılan arxeoloji tədqiqat və elmi araşdırma işlərində BDU tələbələrinin yaxından iştirak etməsidir. Çünki araşdırılmağa, öyrənilməyə və tanıdılmağa ehtiyacı olan abidələrimiz var".

Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev qeyd edib ki, Qüdrət İsmayılzadə dünya arxeoloqları tərəfindən də tanınan və istinad edilən böyük alim idi. Alman arxeoloqların dəvəti ilə Türkiyənin Çanaqqala şəhəri yaxınlığındakı antik Troya qazıntılarında iştirak etməsi onun böyük tədqiqatçı olmasından xəbər verirdi. Ölkəmizin arxeologiya elminə mühüm töhfələr vermiş Qüdrət İsmayılzadənin əsas tədqiqat sahəsi Qarabağ olub. Bu baxımdan konfransın mövzusu günümüzlə səsləşir. İşğaldan azad edilmiş ərazilərdəki elmi-tədqiqat işlərində iştirak edir, ondan öyrəndiklərimizi tətbiq edirik".

Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Anar İsgəndərov, ADA Universitetinin prorektoru, millət vəkili Fariz İsmayılzadə, professorlar İbrahim Zeynalov, Hidayət Cəfərov, Tarix Dostiyev və Qüdrət İsmayılzadənin qızı dosent Nigar İsmayılzadə görkəmli alimin Azərbaycan elmində oynadığı roldan danışıblar.

Qüdrət İsmayılzadə haqqında videoçarx nümayiş etdirilib.

Konfrans işini elmi məruzələrin təqdimatı ilə davam etdirib.

Qüdrət İsmayılzadə 1934-cü il oktyabrın 24-də Bakıda anadan olub. 1957-ci ildə BDU-nun Tarix fakültəsini, 1963-cü ildə AMEA-nın aspiranturasını bitirib. "Qərbi Azərbaycanın qədim mədəniyyəti tarixinə dair" adlı namizədlik dissertasiyası müdafiə edib. 1964-cü ildən Qarabağ, Azıx, Sarıtəpə və digər arxeoloji ekspedisiyalarda iştirak edib, Füzuli arxeoloji ekspedisiyasının rəhbəri olub. 1983-cü ildə "Azərbaycanın Erkən Tunc dövrü mədəniyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1958–1977-ci illərdə AMEA-nın Tarix İnstitutunun Arxeologiya və etnoqrafiya sektorunun əməkdaşı olub. 1977-ci ildən BDU-nun Ümumi tarix, Qədim dünya və orta əsrlər tarixi, Arxeologiya və etnoqrafiya kafedralarında çalışıb. Son illərdə BDU-nun Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının məsləhətçi professoru kimi çalışıb. 2019-cu ildə BDU-nun 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Alim Xəzər Universitetində də müəllim kimi fəaliyyət göstərib, universitetin "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru olub. 2024-cü il aprelin 1-də vəfat edib.

# Özbək xalqının maarif-mədəniyyət ziyası

Ötən yüzilliyin əvvəllərində bütün Türküstan ellərində olduğu kimi, özbək xalqının da ictimai-siyasi və ədəbi-mədəni həyatı milli oyanışla müşayiət olunub. Bu prosesdə şair, bəstəkar, ədəbiyyatşünas Həmzə Həkimzadə xüsusilə fəallıq göstərib. O, Azərbaycanla da ədəbi-mədəni əlaqələrin inkişafı üçün səy göstərib. Böyük dramaturq Cəfər Cabbarlının yaradıcılığında sanki özbək həyatını da görüb...



Bu il görkəmli ədibin anadan olmasının 135 illiyidir.

Həmzə Niyazi oğlu Həkimzadə 1889-cu ildə Kokand şəhərində həkim ailəsində dünyaya göz açır. İlk olaraq mədrəsə təhsili alır, ərəb, fars dillərini dərindən mənimsəyir. Poeziyaya dərin maraq göstərir. Klassik cığatay ədəbiyyatını yaxşı öyrənir. İlk mətbu şeiri 1905-ci ildə "Nihan" təxəllüsü ilə dərc olunur.

O, bir çox klassik şairlərin yaradıcılığı ilə maraqlanır. Ancaq daha çox iki dahidən – Əlişir Nəvai və Məhəmməd Füzulidən bəhrələnir. Professor Pənah Xəlilov "H.Həkimzadə və Azərbaycan ədəbiyyatı" məqaləsində yazır ki, onun qəzəllərinin ahəngində Füzuli qəzəllərinin təsiri duyulur.

H.Həkimzadənin 1915–16-cı illərdə "Ağ gül", "Sarı gül", "Yaşıl gül", "Qızılgül" adlı kitabları işıq üzü görür. O, bir çox şeirlərinə musiqi də yazır. Bəstələdiyi mahnılar el dillər əzbəri olur. 20-ci illərdə Özbəkistanın sovetləşməsindən sonra o, rəsmi tədbirlərdə və zəhmətkeş kütlələr qarşısında vaxtaşırı çıxışlar edir. Ölkədə şöhrət qazanır. "Xalq şairi" fəxri adına layiq görülür.

Şair maarif carçısı kimi də tanınır. Kokandda, Mərgilanda məktəb açır, kimsəsiz və kasıb balalarına pulsuz dərs verir, dərsliklər yazır. Onun "Oxu kitabı", "Qiraət kitabı", "Yeni ədəbiyyat" kitabları şagirdlərin stolüstü dərs vəsaiti olur.

Azərbaycan ədəbiyyatı, teatr sənəti H.Həkimzadənin də diqqətini cəlb edir. Araşdırmalardan məlum olur ki, o, M.F.Axundzadənin əsərlərini mütaliə edir, Daşkənddə göstərilən Azərbaycan teatrının tamaşalarına baxır və sənət ustalarımızın yaradıcılığından təsirlənir.

H.Həkimzadə 1914-cü ildə Bakıya gəlir. Azərbaycan dramaturqları və aktyorlarla görüşür. Professor P.Xəlilov bu barədə yazır: "Həmzə Həkimzadənin Cəfər Cabbarlı sənətinə üz tutması yalnız şəxsi rəğbətdən irəli gəlməyib. Cabbarlı dramaturgiyası onun gözündə özününküləşib: o, Cabbarlı sənətində Azərbaycan həyat tərzi ilə yanaşı, özbək həyatını da görüb".

30-dan çox pyes qələmə alan H.Həkimzadə özbək dramaturgiyasının inkişafına mühüm töhfələr verib. "Bəy və muzdur", "Zəhərli həyat və yaxud eşq qurbanları", "Elm hidayəti" və s. əsərləri tamaşaya qoyulur. O, həmçinin Azərbaycan dramaturgiyasından bir sıra nümunələri özbək dilinə tərcümə edib və tamaşaya qoyulmasında rejissor kimi iştirak edib.

Maarifçi-ədib Özbəkistanda Azərbaycan ədəbiyyatının və sənətinin təkcə təbliğatçısı yox, həm də yaxşı bilicisi kimi tanınıb. 1920-ci illərdə Xarəzm, Buxara və Nukusda maarif və teatr işləri ilə məşğul olarkən təkrar Bakıya gəlir. Buradakı mədəni proseslərdən lazımınca bəhrələnir. Bu da ona mədəni sahədə daha fərqli ideyalar gerçəkləşdirmək imkanı qazandırır...

O, digər milli respublikaların ziyalıları kimi repressiya dalğasını görməsə də, həyatını acı sonluqla başa vurub. 1929-cu ildə sovet təbliğatçısı kimi ucqar Şahmərdan kəndinə göndərilir. Orada "ateizm təbliğatçısı" olaraq quruluş əleyhdarı qüvvələrin təhrik etdiyi sakinlər tərəfindən daş-qalaq edilir və öldürülür. Sovet hökuməti tərəfindən həmin qışlaq dağıdılır və H.Həkimzadənin adının əbədiləşdirilməsi məqsədilə onun yerində "Həmzəabad" adlı yeni qəsəbə salınır.

H.Həkimzadənin fəaliyyətinə sovet dövründə yüksək qiymət verilib, yaradıcılığı geniş təbliğ edilib. Sovet quruluşunun süqutundan və Özbəkistan müstəqillik əldə etdikdən sonra onun fəaliyyətinə yenidən baxılsa da, adı bir sıra mədəniyyət ocaqlarından (o cümlədən Özbək Milli Akademik Dram Teatrından) götürülsə də, özbək xalqının maarif və mədəniyyət carçısı kimi bu gün də hörmətlə xatırlanır...

**S.Fərəcov**

# İstanbul sərgisində Azərbaycan ədəbiyyatı ilə bağlı tədbir və təqdimatlar




Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan 2–10 noyabr tarixlərində keçirilən 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisində "fəxri qonaq ölkə" kimi iştirak edib. TÜYAP kompleksində təşkil olunan sərgi çərçivəsində (o cümlədən ölkəmizin stendində) azərbaycanlı yazar və naşirlərin iştirakı ilə təqdimatlar, panellər, imza mərasimləri – ümumilikdə 20-dək tədbir olub. Onların bir qismi haqqında ötən sayımızda məlumat vermişdik.

***

Noyabrın 3-də sərgi çərçivəsində Türkiyənin "Heca" dərgisinin 2023-cü ildə işıq üzü görən "Modern Azərbaycan şeiri" adlı xüsusi sayının təqdimatı olub.

Tədbirdə bildirilib ki, xüsusi sayın tərtibçisi və ön söz müəllifi Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi Səlim Babullaoğlu, şeirləri türkcəyə çevirən Ömər Kiçikməhmədoğludur. Nəşrdə XX-XXI əsrləri əhatə edən poeziya nümunələri – Rəsul Rza, Əli Kərim, Fikrət Qoca, Nurəngiz Gün, Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Ramiz Rövşən, Vaqif Bayatlı Odər, Adil Mirseyid, Zahid Sarıtorpaq, Rasim Qaraca, Elxan Zal, Həmid Herisçi, Azad Yaşar, Salam Sarvan, Qulu Ağsəs, Səlim Babullaoğlu, Zahir Əzəmət, Aqşin Yenisey, Jalə İsmayıl, Rəbiqə Nazimqızı, Qismət, Fərid Hüseyn, Aqşin Evrən və Səxavət Sahilin şeirləri yer alıb.











Qeyd edək ki, "Heca" dərgisi 1997-ci ildən Ankarada nəşr olunur.

***

Həmin gün Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) nəşr etdirdiyi "Səninləyik, Türkiyə!" kitabının təqdimatı keçirilib. Kitabda 6 fevral 2023-cü il tarixində Türkiyədə əlli mindən artıq insanın həlak olması ilə nəticələnən dəhşətli zəlzələdən sonra Türk dünyası şairlərinin qardaş ölkəyə dəstək, türk xalqı ilə həmrəylik ifadə edən şeirləri toplanıb.

Bakıda "Mütərcim" nəşriyyatında işıq üzü görən antologiyanın tərtibçisi, tərcüməçi və redaktoru S.Babullaoğlu, dillər üzrə məsləhətçilər Ömər Kiçikməhmədoğlu, Şəmsəddin Kuzəçi, Maya Saparova, Zera Bəkirova və Albina Borisovadır.

AYB-nin katibi S.Babullaoğlu nəşr haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, nəşrin ideya və ön söz müəllifi TMİF-in ilk prezidenti, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyevadır.

TMİF-in hazırkı prezidenti Aktotı Raimkulovanın təqdimat iştirakçılarına ünvanlanan məktubu oxunub.

Fondun Aparatının rəhbəri Fəxri Hacıyev, yazarlar Qismət Rüstəmov, Fərid Hüseyn, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan çıxış ediblər.

Kitabda azərbaycanlı şairlər S.Babullaoğlu və F.Hüseynin də şeirləri yer alıb.

***

Həmin gün Azərbaycan stendində incəsənət ustalarının ifasında konsert proqramı da təqdim olunub. Xalq artisti, xanəndə Mənsum İbrahimov tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədov və nağarada Siyavuş Kərimovun müşayiəti ilə bəstəkar və xalq mahnılarını ifa edib. Konsert proqramı alqışlarla qarşılanıb.

***

Noyabrın 4-də sərgi çərçivəsində yazıçı, filologiya üzrə fəlsəfə doktoru, "Hədəf" nəşriyyatının direktoru Şəmil Sadiqin "OdƏrlər" tarixi-fəlsəfi romanının türkcə nəşrinin təqdimatı keçirilib.

Tədbirin moderatoru tədqiqatçı-jurnalist Dilqəm Əhməd XX əsrin əvvəllərindən Azərbaycan ədəbiyyatında tarixi roman janrının formalaşmasından danışıb. Bildirib ki, Şəmil Sadiqin "OdƏrlər" romanı 2013-cü ildə, II Qarabağ müharibəsindən yeddi il əvvəl nəşr olunsa da, burada şanlı Zəfərimiz əksini tapıb. Müəllif sanki illər sonra baş verəcək hadisələri öz təxəyyülü ilə canlandıraraq maraqlı bir tarixi roman ərsəyə gətirib.

Türkiyəli müğənni, aşıq Binyamin Aksunqur, İstanbuldakı Türkiyə-Azərbaycan Dərnəyinin rəhbəri Səfər Qaraqoyunlu, Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti Dostluq Cəmiyyətinin rəhbəri Orxan Həsənoğlu, yazıçı, naşir Suat Turqut və başqa çıxış edənlər əsərin ideya-bədii xüsusiyyətlərindən danışıb, müəllifə uğurlar arzulayıblar.

Şəmil Sadiq əsərin yazılmasının tarixçəsindən danışıb. Qeyd olunub ki, kitaba görkəmli Azərbaycan yazıçısı mərhum İsa Muğanna ön söz yazıb.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun və "İgidliyə görə" medalı ilə təltif edilmiş şəhid baş leytenant Fərid Əhmədovun əziz xatirəsinə ithaf olunan "OdƏrlər" romanı postmodern üslubda yazılan və Qarabağ münaqişəsinə həsr olunan ilk irihəcmli nəsr nümunələrindəndir. Əsəri türk dilinə Ruslan Rəhimov uyğunlaşdırıb.

Sonda müğənni, aşıq Binyamin Aksunqur tıva türklərinin (Rusiya), İraq türkmənlərinin nəğmələrini və Xalq artisti mərhum Əlibaba Məmmədovun "Mənim Azərbaycanım" mahnısını ifa edib.

Müəllif kitabı oxucular üçün imzalayıb.

***

Həmin gün İstanbul sərgisi çərçivəsində Xalq şairi Vaqif Səmədoğlunun (1939–2015) türk dilində çap olunan "Mən burdayam, İlahi!" kitabının təqdimatı da olub.

Tədbirin moderatoru şair Fərid Hüseyn Vaqif Səmədoğlunun yaradıcılığı haqqında söz açıb. Bildirilib ki, TMİF-in dəstəyi ilə nəşr olunan kitabdakı şeirləri tanınmış şair və ədəbiyyatşünas mərhum Arif Acalov türk dilinə uyğunlaşdırıb.

TMİF-in əməkdaşı qurumun rəhbəri Aktotı Raimkulovanın tədbir iştirakçılarına ünvanlanan məktubunu diqqətə çatdırıb.

Esseist Qismət Rüstəmov, araşdırmaçı-yazar Ülvi Babasoy, naşir Nurman Tariq çıxış edərək V.Səmədoğlu yaradıcılığının məziyyətlərindən, Azərbaycan sərbəst şeirinin inkişafına verdiyi töhfələrdən danışıblar.

Şairin həyat yoldaşı, nəşrin layihə rəhbəri Nüşabə Babayeva-Vəkilova kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

***

Noyabrın 4-də sərgi çərçivəsində daha bir tədbir çağdaş Azərbaycan şeirinin inkişaf mərhələlərinə həsr olunub.

Panelin moderatoru Fərid Hüseyn müasir poeziyamız haqqında məlumat verib. Şair Günel Şamilqızı müstəqillik dövrü Azərbaycan poeziyasının müxtəlif mərhələlərində diqqəti çəkən xanım yazarlardan bəhs edib. Şairlər Aqşin Yenisey, Şəhriyar Del Gerani müasir Azərbaycan şeirinin mövzu və ideya istiqamətlərindən danışıblar.

***

Eyni gündə Azərbaycan stendində yazıçı, Əməkdar jurnalist Yunis Orucovun türk dilində çap olunan "Boraltan" və "Nargin – türkün məzarı" kitablarının imza mərasimi keçirilib. "Boraltan" tarixi romanı II Dünya müharibəsi illərində qırmızı terrordan qaçaraq qardaş Türkiyəyə sığınan, lakin 1945-ci ildə Stalinin tələbi ilə SSRİ-yə təhvil verilən soydaşlarımızın məşəqqətli taleyinə həsr olunub.

İkinci kitab isə I Dünya müharibəsi (1914–1918) zamanı Rusiyanın Xəzər dənizində əsir düşərgəsi kimi istifadə etdiyi Nargin adasında minlərlə türk hərbçisinin ağır şərtlər altında əzablı taleyindən bəhs olunur.

***

Noyabrın 4-də həmçinin TÜYAP kompleksində Türkiyə Nəşriyyatları Birliyinin təşkilatçılığı ilə Azərbaycan naşirlərinin türkiyəli həmkarları ilə görüşü keçirilib.

İki ölkənin nəşriyyatları arasında əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub. Beynəlxalq platformalarda ölkələrimizin ədəbiyyatının, kitab sənayesinin təbliği sahəsində işbirliyi ilə bağlı fikir mübadiləsi aparılıb.

**Fariz Yunisli**

## Rəsulzadənin panturanizm haqqında kitabı

Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin "Panturanizm haqqında (Qafqaz problemi ilə əlaqədar)" kitabı çapdan çıxıb.

Bakıda "Salman Mümtaz yayınları"nın nəşr etdiyi kitabı Azərbaycan türkcəsinə Vaqif Sultanlı və Əliheydər Yunisoğlu çeviriblər.

M.Ə.Rəsulzadənin 1930-cu ildə Qafqaz İstiqlal Komitəsinin dəstəyi ilə Parisdə rus dilində çap olunan "Panturanizm haqqında (Qafqaz problemi ilə əlaqədar)" kitabı böyük mütəfəkkirin siyasi-kulturoloji görüşlərinin öyrənilməsi baxımdan son dərəcə önəmli qaynaqlardan biridir. Əsərin yarandığı dönəm istər Azərbaycan və Türkiyə, istərsə də digər türk xalqları tarixinin ən mürəkkəb, keşməkeşli dönəmi olduğundan problemə yanaşmada zamanın təsiri aşkar şəkildə duyulmaqdadır.

Türkçülük və turançılıq anlayışlarının siyasi yöndə deyil, kulturoloji aspektdə dərk olunması zərurətinə söykənən "Panturanizm haqqında (Qafqaz problemi ilə əlaqədar)" əsərinin rus dilində, həm də Paris şəhərində yayınlanması Rusiya mühacirətinin Fransada toplu halında məskunlaşması ilə bağlıdır.

Kitabın "Romantik düşüncədən gerçək birliyə" adlı ön sözündə professor Vaqif Sultanlı yazır: "Rəsulzadə əsərdə turançılıq ideyalarının Azərbaycanda, ümumən Qafqazda yayılmasının təbii səbəblərini önə çəkərək milli istiqlal məfkurəsinin onun kölgəsində gizlədilməsinə çalışan gizli və aşkar düşmənlərə qarşı özünün sərt mövqeyini sərgiləmişdir. O, turançılıq ideyası altında ayrı-ayrı türk dövlətlərinin vahid imperiyanın çətiri altına girməsini deyil, öz bağımsızlıqlarını əldə etməsi, eyni məfkurəyə tapınmaqla yaranacaq mənəvi-kulturoloji birliyi nəzərdə tutulduğunu vurğulayır".

## AzMİU tələbələrinin işləri Rusiyada müsabiqədə qalib olub



Rusiyanın Yekaterinburq şəhərində buraxılış işlərinin XXXIII beynəlxalq baxış-müsabiqəsi keçirilib. Builki baxış-müsabiqədə 50 təhsil müəssisəsindən ümumilikdə 800-ə yaxın iş nümayiş olunub.

Müsabiqədə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Memarlıq və Dizayn fakültələri tələbələrinin seçmə buraxılış işləri də yer alıb.

AzMİU-nun Dizayn fakültəsinin dekanı Fərid Kərimov, Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının baş müəllimi İlqar Əliyev universitet tələbələrinin seçilmiş buraxılış işlərini beynəlxalq münsiflər heyətinə təqdim ediblər.

Yarışmanın nəticələrinə əsasən, memarlıq ixtisası üzrə 12 iş I dərəcəli, 10 iş II dərəcəli və 2 iş III dərəcəli diplomlara layiq görülüb. Dizayn ixtisası üzrə 4 iş I dərəcəli, 3 iş II dərəcəli diplomlarla təltif olunub.

## Xatirə təqvimi — 8 – 14 noyabr

### Azərbaycan

**8 noyabr 1923** – Xalq artisti, instrumental ifaçı, dirijor Tofiq Qəzənfər oğlu Əhmədov (1923 – 23.3.1981) anadan olub. Azərbaycan Radiosu və Televiziyasının estrada orkestrini yaradıb, milli caz musiqisinin inkişafına töhfələr verib.

**8 noyabr 1930** – Əməkdar incəsənət xadimi, bəstəkar Əfsər Bayram oğlu Cavanşirov (1930 – 20.5.2006) Füzuli rayonunun Horadiz kəndində doğulub. Azərbaycan Televiziyası və Radiosunun "Bənövşə" uşaq xorunun yaradıcısı (1958) və bədii rəhbəri olub. Simfoniyalar, uşaq xoru üçün əsərlər yazıb.

**8 noyabr 1939** – Kino xadimi, səs rejissoru və operatoru Ələkbər Əliheydər oğlu Həsənzadə (1939 – 1.7.2019) Bakıda doğulub. "Azərbaycanfilm", "Lenfilm"də çalışıb, Rusiyanın Əməkdar incəsənət xadimi olub.

**8 noyabr 1942** – Əməkdar memar, respublika Dövlət mükafatı laureatı Əlibəy Nəzərəli oğlu Novruzi (1942 – 4.3.2021) Bakıda anadan olub.

**8 noyabr 1944** – Teatrşünas, yazıçı-publisist Cəlil Həbib oğlu Vəzirov (1944-2008) anadan olub. Naxçıvan Muxtar Respublikası Teatr Xadimləri İttifaqının sədri işləyib.

**8 noyabr 2018** – Xalq artisti, görkəmli aktrisa Amaliya Əliş qızı Pənahova (15.6.1945 – 2018) vəfat edib. 1964-cü ildən Akademik Milli Dram Teatrında çalışıb. 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradıb. Filmlərdə yaddaqalan rollar oynayıb.

**9 noyabr 1926** – Xalq rəssamı Davud Mehdi oğlu Kazımov (1926 – 14.2.2015) Bakıda doğulub. Rəngkarlıqla yanaşı, qrafika ustası kimi də tanınıb, bədii əsərlərə illüstrasiyalar çəkib.

**9 noyabr 1973** – Xalq artisti Rza Əfqanlı (Rza Rüstəm oğlu Cəfərzadə; 15.5.1899 –1973) vəfat edib. Akademik Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**9 noyabr 1994** – Xalq yazıçısı Bayram Salman oğlu Bayramov (11.12.1918 – 1994) vəfat edib. "Mən ki gözəl deyildim", "Firəngiz", "Onun bəlalı sevgisi" filmlərinin ssenari müəllifidir.

**10 noyabr 1927** – Rəssam, dekorativ-tətbiqi sənət ustası Sabir Məmməd oğlu Şıxlı (1927-2004) Şamaxı şəhərində anadan olub. "Azərbaycanfilm"də dekorator-rəssam ("Böyük dayaq", "Səhər" və s. filmlər) işləyib.

**10 noyabr 1984** – Şair, nasir, tərcüməçi Mikayıl Manaf oğlu Rzaquluzadə (17.3.1905 – 1984) vəfat edib. Uşaqlar üçün əsərlərin müəllifidir.

**11 noyabr 1907** – Şair, dramaturq, Əməkdar incəsənət xadimi Mirmehdi Həsən oğlu Seyidzadə (1907 – 31.8.1976) Aşqabadda doğulub. Əslən Bakının Əmircan kəndindəndir. 1920-ci ildə ailəlisi Bakıya köçüb. Uşaqlar uçun şeirlər, mənzum nağıllar, pyeslər yazıb.

**11 noyabr 1921** – Xalq şairi, ədəbiyyatşünas Balaş Azəroğlu (Balaş Allahbaxış oğlu Abizadə; 1921 – 24.4.2011) Bakıda anadan olub. 1938-ci ildə Cənubi Azərbaycana köçüb, milli hərəkata qoşulub. Sonra yenidən Bakıya qayıdıb. 40-a yaxın kitabın müəllifidir.

**11 noyabr 1934** – Xalq artisti, görkəmli xanəndə İslam Tapdıq oğlu Rzayev (1934 – 26.1.2008) Füzuli rayonunun Sərdarlı kəndində anadan olub. "Muğam teatrı"nın yaradıcısı (1988) olub, çoxsaylı gənc ifaçılar yetişdirib.

**11 noyabr 1951** – Xalq artisti, aktyor, rejissor İsmayıl Hüseyn oğlu Hidayətzadə (19.8.1901 – 1951) vəfat edib. İlk milli baletin – "Qız qalası"nın librettosunu yazıb. Filmlərdə çəkilib.

**12 noyabr 1942** – Xalq rəssamı Mirnadir Mirəli oğlu Zeynalov (1942 – 10.3.2021) Bakının Buzovna kəndində anadan olub. Hindistana yaradıcılıq ezamiyyəti (1987) ilə bağlı silsilə əsərlər çəkib. Əsərləri xaricdə nümayiş olunub.

**12 noyabr 1996** – Əməkdar memar Fərman Həsənqulu oğlu İmamquliyev (23.2.1926 – 1996) vəfat edib. Gəncədəki Nizami məqbərəsinin layihə müəllifidir.

**13 noyabr 1939** – Xalq artisti Solmaz Cəbrayıl qızı Qurbanova (1939–2013) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrının aktrisası olub.

**13 noyabr 1983** – Əməkdar incəsənət xadimi, kinooperator Əsgər Cəfər oğlu İsmayılov (1.4.1905 – 1983) vəfat edib. Çəkdiyi filmlər: "Qara daşlar", "Kölgələr sürünür" (bədii), "Bakıdan Göygölədək" (1947, ilk Azərbaycan rəngli sənədli filmi).

**13 noyabr 2021** – Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Həsən oğlu Əliyev (16.7.1934 –2021) vəfat edib. Bakı şəhərinin baş memarı olub.

**13 noyabr 2022** – Əməkdar mədəniyyət işçisi, aşıq Əlixan Abbasqulu oğlu Niftəliyev (25.6.1943 – 2022) vəfat edib.

**14 noyabr 1925** – Şair, nasir, publisist Gəray Fəzli (Gəray Fəzli oğlu Alimov; 1925 – 26.12.1995) Qax rayonunun İlisu kəndində doğulub. Şeirlərinə populyar mahnılar yazılıb.

**14 noyabr 1942** – Əməkdar artist, xanəndə Sabir Nüsrət oğlu Mirzəyev (1942 – 23.7.2011) Cəlilabad rayonunda anadan olub. İfasında lentə alınan muğam və xalq mahnıları teleradionun "qızıl fond"unda saxlanılır.

**14 noyabr 1944** – Xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseyn oğlu Hüseynov (1944 – 5.4.2021) Ağdam rayonunun Gülablı kəndində doğulub.

**14 noyabr 1949** – Xalq artist Rafiq Hacıbaba oğlu Əliyev (1949 – 16.4.2020) Füzuli rayonunun Merdinli kəndində anadan olub. Gənc Tamaşaçılar Teatrında aktyor, rejissor kimi fəaliyyət göstərib, filmlərdə ("Qəm pəncərəsi", "Qətl günü" və s.) çəkilib.

**14 noyabr 2006** – Xalq artisti, estrada müğənnisi Oqtay Cəfər oğlu Ağayev (7.11.1934 – 2006) vəfat edib.

### Dünya

**8 noyabr 1837** – Gürcü yazıçısı, şair İlya Qriqoryeviç Çavçavadze (1837 – 12.9.1907) anadan olub. "Erməni alimləri və fəryad edən daşlar" əsərində ermənilərin qonşu xalqların tarixinə qarşı saxtakarlığını ifşa edib.

**8 noyabr 1900** – Amerika yazıçısı Marqaret Mitçell (Margaret Munnerlyn Mitchell; 1900–1949) anadan olub. "Küləklə sovrulanlar" romanı ilə məşhurlaşıb.

**9 noyabr 1818** – Rus yazıçısı İvan Sergeyeviç Turgenev (1818 – 3.9.1883) anadan olub. Əsərləri: "Atalar və oğullar", "Ərəfə" (romanlar), "Ovçunun qeydləri" hekayələr toplusu və s.

**9 noyabr 1929** – Yəhudi əsilli macar yazıçısı, Nobel mükafatı laureatı (2002) İmre Kertes (1929 – 31.3.2016) anadan olub.

**10 noyabr 1759** – Alman şairi, dramaturq Yohann Fridrix Şiller (Johann Christoph Friedrich von Schiller; 1759 – 9.5.1805) anadan olub. Pyesləri: "Qaçaqlar", "Məkr və məhəbbət", "Mariya Stüart", "Orleanlı qız" və s.

**10 noyabr 1928** – İtalyan bəstəkarı, dirijor və aranjimançı Ennio Morrikone (Morricone; 1928 – 6.7.2020) anadan olub.

**11 noyabr 1821** – Rus yazıçısı Fyodor Mixayloviç Dostoyevski (1821 – 9.2.1881) anadan olub. "Alçaldılmış və təhqir olunmuşlar", "Cinayət və cəza", "İdiot", "Şeytanlar", "Yeniyetmə", "Karamazov qardaşları" və s. romanların müəllifidir.

**11 noyabr 1944** – Türk aktyoru Kamal Sunal (1944 – 3.7.2000) anadan olub. 100-ə yaxın filmdə əksəriyyəti komik rollar olan xarakterik obrazlar yaradıb.

**12 noyabr 1935** – Rus aktrisası və müğənnisi, SSRİ Xalq artisti Lyudmila Markovna Qurçenko (1935 – 30.3.2011) anadan olub.

**13 noyabr 1745** – Fransalı pedaqoq, korlar üçün ilk əlifbanın müəllifi Valentin Hauy (Valentin Haüy; 1745–1822) anadan olub. Onun doğum günü şərəfinə 13 noyabr "Beynəlxalq gözdən əlillər günü" kimi qeyd olunur.

**13 noyabr 1850** – İngilis (şotland əsilli) yazıçısı, macəra romanlarının müəllifi Robert Luis Stivenson (Robert Louis Stevenson; 1850 – 3.12.1894) anadan olub. Əsərləri: "Dəfinələr adası", "Qara ox" və s.

**14 noyabr 1840** – Fransız rəssamı, impressionizmin banilərindən Klod Mone (Oscar-Claude Monet; 1840-1926) anadan olub.

**14 noyabr 1907** – İsveç yazıçısı, uşaqlar üçün əsərlərin ("Balaca və Karlson") müəllifi Astrid Lindqren (Astrid Anna Emilia Lindgren-Griksson; 1907 – 28.1.2002) anadan olub.

**14 noyabr 1924** – Məşhur skripkaçı, SSRİ Xalq artisti Leonid Borisoviç Koqan (1924 – 17.12.1982) anadan olub.

**Hazırladı: V.Orxan**

№83 (2148)
8 noyabr 2024
www.medeniyyet.az

# “Köhnə çamadanlar” filmi Ankarada nümayiş olunub

Noyabrın 6-da Ankaradakı “CSO Ada” mərkəzində rejissor Səidə Haqverdiyevanın Birinci və İkinci Qarabağ müharibələrinin qəhrəmanlarına həsr olunmuş “Köhnə çamadanlar” filminin nümayişi olub.

Ekran əsərinin qardaş ölkədə premyerası Azərbaycanın Zəfər Gününün dördüncü ildönümünə həsr edilib.

Təqdimat Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Ankara Qazi Universiteti, Altındağ Bələdiyyəsi (Ankara) və bir sıra ictimai təşkilatların dəstəyi ilə gerçəkləşib.

“Oyun” inklüziv teatrı ilə “RS Production” şirkətinin birgə istehsalı olan bədii filmin çəkilişləri DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə həyata keçirilib.

Layihə barədə jurnalistlərə məlumat verən rejissor və ssenari müəllifi Səidə Haqverdiyeva bildirib ki, film real hadisələrə əsaslanır və Birinci və İkinci Qarabağ müharibələri illərində səkkiz qadının taleyindən bəhs edir:



“Şəhid anaları, bacıları, həyat yoldaşları, həkimlər, əsirlər, məcburi köçkünlərin müxtəlif taleləri müharibənin mürəkkəb psixoloji ab-havası ssenaridə bir-birini tamamlayır. Film savaşın ağrı-acısına baxmayaraq, Azərbaycan qadınlarının Qələbəyə inamını bir an belə itirmədiyini nümayiş etdirir”.

Filmin ssenari müəllifi Sevda Sultanova, görüntü rejissoru Şahmar Səfəroğlu, montaj rejissoru Rza Almasi Pərqu, quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Vüqar Camalzadə, baş prodüseri Pərvinə İsmayılova, icraçı prodüserləri Kəmalə Nəhmətova və Nicat Məmmədov, redaktoru Həmidə Rüstəmovadır. Rolları Xalq artistləri Məmməd Səfa, Pərvanə Qurbanova, Əməkdar artistlər Gülzar Qurbanova, Şəfəq Əliyeva, Nəsibə Eldarova, aktyorlar Ülviyyə Əliyeva, Qızılgül Quliyeva, Aqil M.Quliyev və başqaları ifa ediblər.

Rejissorun sözlərinə görə, filmin ideyasını xarici tamaşaçılara çatdırmaq üçün ingilis dilində subtitrlər hazırlanıb.

Tədbirdə iştirak edən Azərbaycan-Türkiyə Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri professor Aygün Attar “Köhnə çamadanlar” filmini ərsəyə gətirənlərə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması iki qardaş ölkənin birliyi üçün xüsusi əhəmiyyət kəsb edir.

Premyera ərəfəsində “CSO Ada” mərkəzində “Qadın, Sülh, Qələbə” adlı sərgi də açılıb.

# Eskişehirdə “İki dövlət, bir Zəfər” adlı sərgi



Türkiyənin Eskişehir şəhərində Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin 4-cü ildönümü münasibətilə tədbir keçirilib.

“İki dövlət, bir Zəfər. Qarabağın azadlığı” adlı tədbir Eskişehir Valiliyi, Azərbaycanın Türkiyədəki Səfirliyi, Eskişehir Mədəniyyət və Turizm Müdirliyi, Türk Dünyası Vəqfi və Eskişehir Azərbaycanlılar Dərnəyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

Tədbirdə Eskişehir valisi Hüseyin Aksoy, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, hərbi attaşe, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Zeynalov, Eskişehir Azərbaycanlılar Dərnəyinin sədri Cavid Aydın və digər qonaqlar qatılıb.

Səfir Rəşad Məmmədov çıxış edib.

Sonra “İki dövlət, bir Zəfər. Qarabağın azadlığı” mövzusunda sərginin açılışı olub. Sərgidə Qarabağın azadlığı və şanlı Zəfərimizin rəmzlərinin fotoşəkilləri yer alır.

# Meksika və Azərbaycan mədəniyyəti arasında oxşarlıqlar var

Bakıda Meksika Birləşmiş Ştatlarının rəsmi bayramı olan Ölülər Gününə (1-2 noyabr) həsr olunmuş tədbir keçirildi.

Meksika səfirliyinin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə xanım səfir Mariya Viktoriya Romero çıxış edərək bayram haqqında məlumat verdi: “Bu bayram bizim adət-ənənəmizi, qədim tariximizi dünyaya tanıdır. Ölülər Günü ispanların ölkəmizə gəlişinə qədərki vaxtlara aiddir. Biz bu gün dünyadan köçən əzizlərimizi müəyyən elementlərlə yad edirik”.

Səfir Azərbaycanla Meksika arasında mədəniyyət sahəsində bir çox oxşar tərəflərin olduğunu dedi: “Hər iki ölkənin minilliklərlə ölçülən tarixi var. Hər hansı tarixi hadisələrə baxmayaraq, xalqlarımız öz milli kimliyini qoruyub saxlaya bilib”.

Diplomat tədbirin Meksika adət-ənənələrinin tanıdılması və



ölkələr arasındakı mədəni əlaqələrin inkişafı yolunda mühüm bir addım kimi dəyərləndirib. Deyib ki, Ölülər Günü 2008-ci ildə UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

Səfir diqqətə çatdırdı ki, bu gün məşhur meksikalı rəssamlar Frida Kahlo və Dieqo Rivieraya həsr edilmiş qurbangah hazırlanıb. Bayramı əks etdirən guşədə sempasuçitl (nahuatl dilində “iyirmi çiçək” və ya “dörd yüz ləçək” deməkdir) gülləri ilə bəzədilmiş qurbangahda mərhum rəssamların şəkilləri, şəxsi əşyaları, vaxtilə sevdikləri yeməklər, kəllə formasında hazırlanmış şəkər məmulatı, “Pan de muerto” (hər il Ölülər Günündə əcdadları yad etmək məqsədilə Meksikada bişirilən “ölülər çörəyi”) və xüsusi kəsilmiş kağızlar yer alırdı. Hazırda bu adət-ənənə günümüzə uyğunlaşdırılaraq bir sıra dini elementləri də özündə birləşdirir.

Tədbirdə qonaqlara həmin çörək və Meksika kakaosu təqdim edildi. Qurbangahın qarşısında təqdim olunan xalça haqqında da məlumat verilərək bildirildi ki, meksikalı sənətkarın istehsal etdiyi yararsız və ovulmuş taxta parçalarından hazırladığı bu xalça Bakıda keçiriləcək COP29-a həsr edilib. Xalçanın orijinal və daha böyük ölçüdə olan variantı Azərbaycan Milli Xalça Muzeyində COP29-a həsr olunan sərgidə nümayiş etdiriləcək.

Səfirin sözlərinə görə, Meksika xarici işlər nazirinin müavini və digər rəsmilərdən ibarət nümayəndə heyəti COP29-da iştirak edəcək.

Diplomat yaxın gələcəkdə ölkəsindən tanınmış bəstəkarın Azərbaycana gəlməsinin nəzərdə tutulduğunu da diqqətə çatdırdı.

**Lalə Azəri**

# Tarixdə bu gün

Olaylar, faktlar (9 – 13 noyabr)



Xronoqraf

### 106 il əvvəl...

**9 noyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti üçrəngli (mavi, qırmızı, yaşıl) dövlət bayrağının qəbul olunması barədə qərar verib. 1920-ci ildə Azərbaycan sovetləşəndən sonra üçrəngli bayraq qırmızı sovet bayrağı ilə əvəzləndi. Ölkəmiz müstəqilliyini bərpa edəndən (1991) sonra Cümhuriyyətin bayrağı yenidən Azərbaycanın dövlət rəmzi kimi qəbul olundu. Prezident İlham Əliyevin 2009-cu ildə imzaladığı sərəncama əsasən, 9 noyabr Dövlət Bayrağı Günü elan edilib.

**11 noyabr 1918-ci ildə** Birinci Dünya müharibəsi başa çatıb. Almaniyanın kapitulyasiyasına dair “Kompen sülhü” imzalanıb. Fransada-



kı Kompen meşəsində dəmir yolu vaqonunda müharibənin qalibləri – Fransa, Britaniya, ABŞ və digər müttəfiq dövlətlərin diktəsi altında imzalanan sazişə əsasən, Almaniya müharibə zamanı tutduğu bütün əraziləri azad etməli, ordudan məhrum edilməli idi. 1919-cu ildə Versal sülhü müharibənin yekunlarını rəsmiləşdirdi.

### 86 il əvvəl...

**10 noyabr 1938-ci ildə** Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk vəfat edib. 1919-cu ildə türk xalqının qurtuluş və istiqlal savaşına başçılıq edən Mustafa Kamal paşa 1923-cü ilin 29 oktyabrında elan olunan Türkiyə Cümhuriyyətinin ilk Prezidenti seçilmişdi. 1932-ci ildə TBMM-in qərarı ilə Mustafa Kamala Atatürk adı verildi. 15 il Türkiyə Cümhuriyyətinə rəhbərlik edən Atatürk 4 dəfə prezident seçilmişdi.

### 76 il əvvəl...



**11 noyabr 1948-ci ildə** energetiklər şəhəri Mingəçevirin təməli qoyulub. Kür çayı üzərində Cənubi Qafqazın ən böyük su elektrik stansiyasının tikintisinin başlanması bölgədə iri sənaye mərkəzinin yaranmasına təkan verdi.

### 36 il əvvəl...

**13 noyabr 1988-ci ildə** Ermənistanda azərbaycanlılara qarşı qırğın həyata keçirilib. Spitak rayonunda erməni silahlı dəstələri azərbaycanlı əhalinin evlərinə basqınlar ediblər. 40-dan çox azərbaycanlı qətlə yetirilib, yüzlərlə ailə ev-eşiyindən çölə atılaraq rayonu tərk etməyə məcbur edilib.

### 35 il əvvəl...

**9 noyabr 1989-cu ildə** Almaniyanın iki yerə (Qərbi və Şərqi Almaniya) bölünməsinin simvolu olan “Berlin divarı”nın uçurulması başlanıb. 1961-ci ildə SSRİ rəhbərliyinin qərarı ilə inşa edilən “Berlin divarı”nın uzunluğu 155 kilometr idi.

### 33 il əvvəl...

**9 noyabr 1991-ci ildə** Azərbaycanın Respublikasının dövlət müstəqilliyi ilk olaraq Türkiyə Cümhuriyyəti tərəfindən tanınıb.

### 29 il əvvəl...

**12 noyabr 1995-ci ildə** Azərbaycanda Konstitusiyanın qəbul olunması ilə bağlı referendum və Milli Məclisə ilk seçkilər keçirilib. Prezident Heydər Əliyevin fərmanı ilə 12 noyabr Konstitusiya Günü elan edilib.

### 23 il əvvəl...

**9-10 noyabr 2001-ci ildə** Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda qəbul edilən qərara müvafiq olaraq 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (2008-ci ildən Diaspora İş üzrə Dövlət Komitəsi) yaradıldı.

**Hazırladı: V.Orxan**

# Tramp dörd ildən sonra Ağ Evə qayıdır

## Amerika tarixində ikinci dəfə eks-prezident təkrar seçilib

Dörd il əvvəlki seçkilərdə qələbəsinin əlindən alındığını iddia edən və ötən müddətdə nəyin bahasına olursa-olsun prezidentlik postunu yenidən qazanacağını vəd edən Donald Tramp 2021-ci ilin yanvarında tərk etdiyi Ağ Evə geri dönür. 2024-cü ilin 5 noyabr prezident seçkilərinin rəsmi yekunları hələ elan edilməsə də, faktiki nəticə səsvermə bitəndən bir neçə saat sonra artıq məlum idi.




Tramp ABŞ tarixində birinci prezidentlik müddətindən sonra vəzifədən gedən və 4 il aradan sonra yenidən seçkini qazanan ikinci şəxsdir. Bundan öncə ABŞ-nin 22-ci prezidenti (1887–1891) Qrover Klivlend ikinci müddətə seçilə bilməsə də, 4 il sonra yenidən seçilmiş və 24-cü prezident (1893–1897) olmuşdu. 45-ci prezident olmuş Tramp da ölkə tarixinə 47-ci prezident kimi düşəcək.

Trampın Ağ Evə qayıdışı sürpriz olmasa da, nəticə gözlənildiyindən daha üstün oldu. Seçki marafonunun son günlərinə qədər reytinq sorğularında rəqibi – hazırkı vitse-prezident Kamala Harrislə başa-baş gedən Tramp seçkini açıq-ara fərqlə qazandı.

Xatırladaq ki, Amerikada prezident seçkilərinin nəticəsini ümumən ölkə üzrə səs sayı deyil, ştatlar üzrə “Seçicilər kollegiya”sına nümayəndələrin sayı ilə müəyyən edilir. Bu, 1787-ci ildə, ilk prezident seçkilərində qoyulan qaydadır və indiyədək qüvvədədir. Hər ştat (ümumi seçici sayına müvafiq olaraq) bəlli sayda nümayəndə kvotasına malikdir. Məsələn, əhalisinin sayına görə ən böyük ştat olan Kaliforniyanın “Seçicilər kollegiya”sında nümayəndə sayı 52-dir. Texasda bu rəqəm 40, Floridada 30, Nyu-Yorkda 28-dir. Ən kiçik ştatlar üçün kvota 3 nümayəndədir.

Beləliklə, konkret ştatda qalib gələn namizəd “Seçicilər kollegiya”sı üzrə kvotanı da qazanmış olur. Hazırda “Seçicilər kollegiya”sında ümumi kvota 538-dir və ölkə üzrə qalibiyyət üçün onun yarıdan çoxunu, minimum 270 nümayəndə sayını qazanmaq lazımdır.

Noyabrın 7-nə olan məlumata görə, Tramp 28 ştatda qalib gələrək 295 nümayəndə sayını təmin edib. Harris 20 ştatda və Vaşinqton federal dairəsində (cəmi 226 nümayəndə) qalib olub. Rəsmi nəticələri 7 noyabradək elan olunmayan daha iki ştatda (Nevada və Arizona) da Tramp öndədir. Onun ümumən ölkə miqyasında təxminən 51 faiz səs topladığı bildirilir.

Tramp ilkin nəticələr bəlli olandan az sonra tərəfdarları qarşısına çıxaraq qələbəsini elan edib. O, əldə etdiyi nailiyyətin Amerika xalqının qələbəsi olduğunu və bunu ölkə tarixində “tayı-bərabəri olmayan siyasi qələbə” adlandırıb. Eks-prezident hakimiyyətdə olacağı ikinci müddətin ABŞ tarixində həqiqətən “qızıl dövr” olacağına söz verib.

Qeyd edək ki, Tramp vəzifəsinin icrasına 2025-ci ilin 20 yanvarında inauqurasiya mərasimindən sonra başlamalıdır.

Bu arada 5 noyabrda prezident seçkiləri ilə bərabər ənənəvi olaraq Konqresin alt palatası – Nümayəndələr Palatasına (435 yer) və yuxarı palata – Senatın üçdəbirinə (100 yerdən 34-nə) seçki keçirilib. Nümayəndələr Palatasında deputatların hər çağırış səlahiyyət müddəti 2 ildir. Senatorların (hər ştat üzrə 2 senator) səlahiyyət müddəti isə 6 ildir, amma hər 2 il ara ilə Senatın üçdəbiri yenilənir.

Hələ tam rəsmi olmayan nəticələr Respublikaçılar Partiyasının hər iki palatada üstün olacağını deməyə əsas verir. Noyabrın 7-nə olan məlumata görə, onlar Senatda 52 yer qazanıblar. Nümayəndələr Palatasında isə respublikaçılar 209 (palataya nəzarət üçün 218 mandat lazımdır), demokratlar 191 yeri təmin ediblər. Nümayəndələr Palatasında da üstünlük təmin edilsə, bu, respublikaçılar üçün tam və qəti qələbə olacaq.

**Vüqar Orxan**

# Bir qucaq “Grammy”si vardı...

Məşhur amerikalı bəstəkar və prodüser Kuinsi Cons noyabrın 3-də, 91 yaşında vəfat edib.

14 mart 1933-cü ildə Çikaqoda anadan olan Kuinsi Cons Frenk Sinatra, Maykl Cekson kimi ulduzlarla əməkdaşlıq edib, gənc yaşlarında müxtəlif caz qruplarının üzvü olub.

Onun 50-ci illərdə F.Sinatra ilə başlayan əməkdaşlığı 1984-cü ilə qədər, müğənninin son studiya albomu olan “LA is my lady” çıxana qədər davam edib.

Bəstəkar və prodüser 70-ci illərin sonlarında ulduzu parlayan Maykl Ceksonla əməkdaşlığa başlayıb. O, Ceksona dünya şöhrəti gətirən “Off the Wall”, “Thriller” və “Bad” albomlarının prodüseri olub.

Musiqi karyerası ərzində Kuinsi Cons 80 dəfə “Grammy” mükafatına namizəd olub və 28 dəfə bu mükafatı qazanıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2606
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641